RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 227 (9972) 23 oktyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Estoniya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəkləyib

### Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.

2

## Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasına dövlət səfəri ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

# Üç ildə 13 qarşılıqlı səfər



## Azərbaycan-Qazaxıstan münasibətləri möhkəm təmələ əsaslanır

**Tarixinin ən qüdrətli Azərbaycanının xarici siyasətinin prioritet istiqamətlərindən biri də türk dünyası ilə münasibətlərin getdikcə daha da inkişaf etdirilməsi, türkdilli ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın yüksək səviyyəyə çatdırılmasıdır.**

Təbii ki, türk dünyası dedikdə, ilk növbədə Mərkəzi Asiya ölkələri yada düşür. Çünki Şərqdən Qərbə uzanan türk dünyası dövlətlərinin əksəriyyəti məhz bu regionda yerləşir.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin inkişafı heç də təsadüfi xarakter daşımır. Ölkəmizin bu regionla əlaqələrinin genişlənməsində, heç şübhəsiz, nəqliyyat dəhlizləri də mühüm rol oynayır. Bu baxımdan Prezident İlham Əliyevin Mərkəzi Asiyada yerləşən ölkələrə mütəmadi səfərləri, həmçinin regional təşkilatların tədbirlərində fəxri qonaq qismində iştirakı ölkəmizin region dövlətləri ilə əlaqələrinin dinamikasını nümayiş etdirir.

Mərkəzi Asiya 80 milyondan çox əhaliyə və 3 milyon 882 min kvadratkilometr əraziyə malik regiondur. Bu bölgə dünya uran ehtiyatlarının 20, neft ehtiyatlarının 17,2, təbii qaz ehtiyatlarının 7 faizinə sahibdir. Regionun yerləşdiyi coğrafi mövqe Çin və digər Cənub-Şərqi Asiya ölkələri ilə Qafqaz, Türkiyə və Avropa arasında körpü rolunu oynayır, tranzit yollara və beynəlxalq marşrutlara nəzarət etmək imkanı verir. İnkişaflarının yeni mərhələsində olan Mərkəzi Asiya respublikaları Azərbaycan vasitəsilə yalnız Çinlə Avropa arasında tranzit rolunu oynamır, eyni zamanda özlərinin ixrac potensialını da reallaşdırmaq niyyətindədir ki, bu da rəsmi Bakı ilə əməkdaşlıqdan asılıdır.

Oktyabrın 20-21-də İlham Əliyevin Qazaxıstana növbəti dövlət səfəri də dost və qardaş ölkə ilə münasibətlərin daha da dərinləşməsi istiqamətində müsbət impuls oldu.

Hava limanında İlham Əliyevin dost ölkənin lideri Kasım-Jomart Tokayev tərəfindən qarşılanması, təkbətək görüşdə, mətbuata bəyanatlarla çıxışda Qazaxıstan Prezidentinin səsləndirdiyi səmimi fikirlər bir daha təsdiq etdi ki, Bakı və Astana arasında sarsılmaz bağlar yaranıb.

Ümumiyyətlə, Azərbaycan-Qazaxıstan münasibətləri inkişafının yeni mərhələsinə qədəm qoyub. Bunu şərtləndirən bir sıra amillər var. Birincisi, Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdikdən və bütün əraziləri boyunca suverenliyini təmin etdikdən sonra yeni obrazda beynəlxalq münasibətlər və əməkdaşlıq sistemində iştirak edir. Bu, Azərbaycan-Qazaxıstan münasibətlərində də özünü göstərir. Digər amillərdən biri isə eyni soykökə, mədəni dəyərlərə, oxşar tarixə malik olmaqla Azərbaycan-qazax xalqları öz aralarındakı münasibətləri daha dinamik və səmərəli inkişaf etdirmək imkanlarıdır.

7

## Y.A.Eyyubovun"İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında böyük xidmətlərinə görə Yaqub Abdulla oğlu Eyyubov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

## Prezident İlham Əliyev Yaqub Eyyubova "İstiqlal" ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Yaqub Eyyubovu qəbul edib və ona "İstiqlal" ordenini təqdim edib.**

AZƏRTAC xəbər verir ki, Yaqub Eyyubovu salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli Yaqub müəllim, ilk növbədə sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər müxtəlif məsul vəzifələrdə işləyərkən Azərbaycanın inkişafına öz töhfənizi vermisiniz. Mən bunu yüksək qiymətləndirirəm. Siz də bilirsiniz, mən də bilirəm ki, Ulu Öndər Heydər Əliyev sizə həmişə diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində sizi gənc kadr kimi məsul vəzifələrə təyin etmişdi və sizə böyük etimad göstərmişdi.

2

## Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın zənginləşməsi üçün yaxşı imkanlar mövcuddur

### Yaponiyanın Baş naziri zati-aliləri xanım Sanae Takaiçiyə

Hörmətli xanım Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Yaponiya münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Hazırda iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar mövcuddur.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, mövcud potensialdan istifadə edərək ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da genişləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı məsul dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

## Ermənistanın Baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə təşəkkür edib

**Ermənistanın Baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib.**

AZƏRTAC xəbər verir ki, o, bunu Tbilisidə keçirilən V Tbilisi Beynəlxalq İpək Yolu Forumunda çıxışı zamanı bildirib.

"Prezident İlham Əliyev dünən elan edib ki, Azərbaycan öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırır. Bu, çox mühüm bəyanatdır və mən bu addımına görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Mən həm də buna görə Qazaxıstan Prezidentinə və Gürcüstanın Baş nazirinə minnətdarlığımı ifadə edirəm", - deyə Paşinyan vurğulayıb.

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

10

# Estoniya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəkləyib

## Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Estoniyanın xarici işlər naziri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, bu məsələdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu vurğuladı. Vaşinqton görüşündəki razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında nəqliyyat bağlantısının açılmasının önəminə toxundu.

Estoniyanın xarici işlər naziri Ermənistanın Qazaxıstandan idxal etdiyi taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə daşınmasına ölkəmiz tərəfindən icazə verilməsinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində mühüm addım olduğunu vurğuladı.

Nazir ölkəmizə geniş tərkibdə biznes nümayəndə heyəti ilə gəldiyini və Bakıda biznes-forumun keçirildiyini dedi, bu cür tədbirlərin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Qonaq Estoniyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrini dəstəklədiyini qeyd edərək, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafındakı müsbət dinamikanın məmnunluq doğurduğunu dedi.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə Tirana və Kopenhagendə görüşlərini məmnunluqla xatırladı, ölkəmizlə Avropa İttifaqı arasında enerji, nəqliyyat bağlantıları və digər sahələrdə əməkdaşlıq üçün yeni perspektivlərin açıldığını qeyd etdi.

Qonaq COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə də təbriklərini çatdıraraq bu tədbirdə beynəlxalq iqlim gündəliyi ilə bağlı ciddi nəticələrin əldə edildiyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən birikimi tanındığı üçün Birinci Türkoloji Qurultaya evsahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır.

Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

# "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053 (Cild I); 2024, № 12 (II kitab), maddə 1347; 2025, № 1, maddə 6, № 5, maddə 440, № 8, maddə 743) 3.3-1-ci maddəsində "iyirmi" sözü "otuz" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il*

# "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq haqqında"

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı çərçivəsində 1953-cü il dekabrın 11-də Roma şəhərində təsdiq edilmiş "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyası"nın Nizamnaməsinə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Prezident İlham Əliyev Yaqub Eyyubova "İstiqlal" ordenini təqdim edib





*Əvvəli 1-ci səh.*

Siz də bu etimadı layiqincə doğrultmusunuz. Məhz buna görə müstəqillik dövründə Ulu Öndər xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə gələndən sonra sizi bir neçə məsul vəzifəyə təyin edərək, bir daha sizə etimad göstərmişdir. Onun sərəncamı ilə siz böyük vəzifə olan Baş nazirin birinci müavini təyin olunmusunuz və o illərdən bəri bu vəzifədə çalışırsınız. 22 il ərzində mənim prezidentlik dövrümdə də sizə dəfələrlə etimad göstərmişəm, hər prezident seçkilərindən sonra sizi həmin vəzifəyə yenidən təyin edirdim. Bu gün sizə bu dövlət mükafatını təqdim edərkən demək istəyirəm ki, mən sizin işinizdən razıyam. Siz canla-başla, sədaqətlə dövlətə, vətənə xidmət edirsiniz. Öz işinizdə həmişə tələbkarsınız və mənim göstərişlərimi layiqincə yerinə yetirirsiniz. Sizin böyük xidmətlərinizi nəzərə alaraq mən sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif etmişəm və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

Prezident **İlham ƏLİYEV:** "İstiqlal "ordenini Yaqub Eyyubova təqdim edərək dedi: Sizi təbrik edirəm.

**Yaqub EYYUBOV:** Təşəkkür edirəm.

Fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Yaqub Eyyubov Ümummilli Lider Heydər Əliyev ilə bağlı xatirələrini bölüşdü, Ulu Öndərin və Prezident İlham Əliyevin ona göstərdikləri etimadı həmişə doğrultmağa çalışdığını bildirdi. O məhz dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu qeyd edərək dedi: "Siz dahi şəxsiyyətsiniz ki, Azərbaycanın torpaqlarını geri qaytardınız. Bunu heç kim edə bilməzdi, mümkün də deyildi. Siz gözəl, yüksəkbacarıqlı, dahi bir insansınız. Ona görə də bütün xalq, bütün dünya Sizi görür, Sizinlə qürur duyur".

"İstiqlal" ordeni ilə təltif olunmasının onun üçün böyük şərəf olduğunu vurğulayan Yaqub Eyyubov bildirdi: "Mən həyatım boyu bunu unutmaram və çalışacağam ki, imkanım daxilində, nə qədər imkan varsa, Sizə və dövlətimizə xidmət edim".

Prezident **İlham ƏLİYEV:** Çox sağ olun.

# "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 104, № 5, maddə 442, № 6, maddə 533) 2-ci maddəsinə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

**Maddə 3.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VII QD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)"Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 264-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

**Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir**

## "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikası Konstitusiyasının hazırlanmasına, təkmilləşdirilməsinə və təbliğinə, qanunvericilik və hüquq sisteminin inkişafına, Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, Konstitusiya ilə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, konstitusion ideya və prinsiplərin formalaşdırılması və inkişafına töhfələr vermiş, habelə Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

**Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir**

## "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 40 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI" sözləri, aşağı qövs boyunca sol tərəfdə"1995", sağ tərəfdə "2025" rəqəmləri və rəqəmlərin arasında mərkəzdə səkkizguşəli ulduz, habelə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, ondan aşağıda "30" rəqəmləri və "il" sözü və Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edən simvollar həkk edilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və simvollar qızılı rəngdədir, qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində ikiqatlı lent və səkkizguşəli ulduz təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Xara lentin mərkəzində 11 mm enində tünd yaşıl rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 2,5 mm enində qızılı rəngli, 2 mm enində göy rəngli, 3,5 mm enində qızılı rəngli, 3,5 mm enində tünd yaşıl rəngli, 1,5 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

# "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı



# "Səmavi dinlər" layihəsi Vatikanda təqdim edilib

**"Səmavi dinlər" layihəsi əsasında Azərbaycan xalçaçılarının ərsəyə gətirdiyi triptix Vatikanda təqdim edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Roma Papası XIV Leo ilə görüşündə təqdimatı olan bu sənət əsəri iudaizm, xristianlıq və islam dinlərinə həsr edilib, dərin fəlsəfi düşüncənin, milli sənətkarlıq ruhunun təcəssümüdür.**







AZƏRTAC xəbər verir ki, hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini - sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

Triptixin həm Vatikanda, həm də dünyanın müxtəlif ölkələrində sərgilənməsi planlaşdırılır. Bu baxımdan əsərin Azərbaycanın multikultural irsinin dünyaya tanıdılması baxımından mədəni-siyasi mənası var. Bu, Azərbaycanın mədəni səsinin qlobal miqyasda eşidilməsini, Azərbaycan xalça sənətinin yalnız estetik deyil, həm də fəlsəfi dəyər daşıdığını göstərir.

# Baş nazir Əli Əsədov Gürcüstana işgüzar səfərə gedib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 21-də Gürcüstana işgüzar səfərə gedib.**

Şota Rustaveli adına Tbilisi Beynəlxalq Hava Limanında Baş nazir Ə.Əsədovu Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili və digər rəsmi şəxslər qarşılayıblar.



# Baş nazir Əli Əsədov Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb

**Oktyabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Görüş zamanı Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb.



İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə 5-ci Tbilisi İpək Yolu Forumunun əhəmiyyəti vurğulanıb. Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin mehriban qonşuluq və strateji tərəfdaşlıq əsasında hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Baş nazirlər iki ölkə arasında ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, "yaşıl enerji", humanitar və digər istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər, müxtəlif sahələrdə həyata keçirilən birgə layihələri nəzərdən keçiriblər.

# Baş nazir Əli Əsədov 5-ci Tbilisi İpək Yolu Forumunun açılış mərasimində iştirak edib

**Gürcüstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 22-də 5-ci Tbilisi İpək Yolu Forumunun açılış mərasimində iştirak edib.**






Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Ə.Əsədov Tbilisi İpək Yolu Forumunun əhəmiyyətini vurğulayıb, cəmi bir neçə il ərzində forumun regional və qlobal gündəlikdə yer alan mühüm məsələlərin müzakirəsi üçün nüfuzlu və səmərəli beynəlxalq platforma kimi formalaşaraq özünü tam şəkildə təsdiq etdiyini bildirib.

Baş nazir Şərqlə Qərbi birləşdirən strateji nəqliyyat marşrutu - Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan və Gürcüstanın əsrlər boyu Avropa ilə Asiya arasında körpü rolunu oynayaraq iqtisadi-ticari əlaqələrin inkişafına, mədəni və humanitar mübadilənin möhkəmlənməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

"Bu gün Azərbaycan və Gürcüstan həmin tarixi missiyanı yeni məzmunda davam etdirərək regional əməkdaşlığın gücləndirilməsində aparıcı rol oynayırlar, Avrasiya məkanında yeni nəqliyyat və logistika marşrutlarının formalaşmasında əsas iştirakçılar qismində çıxış edirlər", - deyə Ə.Əsədov vurğulayıb.

Bildirilib ki, Azərbaycanı və Gürcüstanı birləşdirən dostluq və strateji tərəfdaşlıq münasibətləri uzun illərdir ki, regionda sabitliyin və inkişafın mühüm dayaqlarından biridir. Bu gün iki ölkə yalnız siyasi baxımdan deyil, həm də iqtisadi, enerji və nəqliyyat sahələrində etibarlı tərəfdaşlardır.

Nəqliyyat-tranzit sahəsinin ənənəvi olaraq gündəlikdə xüsusi yer tutduğunu bildirən Ə.Əsədov ölkəmizin strateji coğrafi yerləşməsinin və nəqliyyat infrastrukturuna yatırılan böyük sərmayələrin Azərbaycanın Avrasiyada mühüm nəqliyyat-logistika mərkəzi kimi mövqeyini möhkəmləndirdiyini vurğulayıb.

"Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə ölkəmiz tərəfindən ardıcıl iş aparılır. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artırılıb. Eyni zamanda ölkənin əsas dəmir yolları və avtomobil yolları şəbəkəsinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyondan 25 milyon tonadək artırılması məqsədilə ikinci genişləndirilmə mərhələsinə start verilib. Azərbaycan Xəzərin ən böyük ticarət donanmasına, həmçinin regionun ən böyük yükdaşıma aviaşirkətinə malikdir. Cari ilin may ayında Laçında ölkəmizin 9-cu beynəlxalq hava limanı açılıb. Hazırda Ələt Azad İqtisadi Zonasında yeni beynəlxalq karqo hava limanının tikintisi davam edir. Bu və bir sıra digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib", - deyə Baş nazir əlavə edib.

Bütün bu layihələrin Orta dəhlizin tərkib hissəsi olduğu diqqətə çatdırılıb, dəhlizin Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı marşrut kimi artıq özünü təsdiqlədiyi bildirilib.

Qeyd olunub ki, həm coğrafi mövqelərinə, həm də müasir nəqliyyat infrastrukturuna görə Azərbaycan və Gürcüstan bu strateji nəqliyyat dəhlizinin formalaşması və inkişafında aparıcı mövqe tutur.

Dəhliz boyunca infrastrukturun genişləndirilməsi, keçid proseslərinin sadələşdirilməsi və tranzit imkanlarının artırılması istiqamətində ardıcıl və məqsədyönlü addımların atıldığını deyən Baş nazir liman və logistika mərkəzlərinin modernləşdirilməsi, rəqəmsal həllərin tətbiqi kimi layihələrin bu əməkdaşlığın bariz nümunələri olduğunu diqqətə çatdırıb.

Görülmüş tədbirlər nəticəsində son üç ildə Orta dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yükdaşımaların tranzit müddəti əhəmiyyətli dərəcədə azalıb.

Qeyd edilib ki, bu ayın əvvəlində Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolu operatorları Orta dəhliz üzrə daşımalar üçün vahid uzunmüddətli tarifin tətbiqinə dair razılıq əldə ediblər.

Birgə səylərin regionun nəqliyyat və logistika potensialının tam reallaşdırılmasına, ticarət dövriyyəsinin və investisiya axınının artmasına, habelə Avrasiya məkanında iqtisadi əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Bu kontekstdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyi üzrə əldə edilmiş razılaşmaların regionda davamlı əməkdaşlığın təmin olunması baxımından tarixi əhəmiyyəti vurğulanıb.

"Bölgədə kommunikasiyaların açılması, o cümlədən Azərbaycanın əsas ərazisinin ölkənin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşməsi beynəlxalq yükdaşımalar üçün regionun tranzit imkanlarının genişlənməsinə xidmət edəcək. Əminik ki, cari il avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalara əsasən, regionda açılacaq yeni marşrut Orta dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək və onun qlobal nəqliyyat şəbəkəsində rolunun artmasına töhfə verəcək", - deyə Ə.Əsədov qeyd edib.

Baş nazir Azərbaycanın regionda əməkdaşlığın və etimad mühitinin bərpasına sadiqliyini nümayiş etdirdiyini bildirib, Ermənistan istiqamətində yük tranziti ilə bağlı işğal dövründən qalan bütün məhdudiyyətlərin aradan qaldırılmasını Azərbaycan tərəfinin bu kontekstdə mühüm töhfəsi kimi qiymətləndirib.

"Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınması bu baxımdan atılmış ilk praktiki addımdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bu, sülhün artıq yalnız sənədlərdə deyil, real həyatda da tətbiq olunduğunu göstərir", - deyə o əlavə edib.

Ə.Əsədov həmçinin energetika sahəsində Azərbaycan ilə Gürcüstan arasında qurulmuş uzunmüddətli səmərəli tərəfdaşlığın əhəmiyyəti barədə söhbət açıb, bu strateji tərəfdaşlığın artıq regional sərhədləri aşaraq beynəlxalq əməkdaşlığın uğurlu nümunəsinə çevrildiyini bildirib.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri və "Cənub qaz dəhlizi" kimi beynəlxalq əhəmiyyətli layihələrin energetika sahəsində uğurlu əməkdaşlığın əsasını təşkil etdiyi diqqətə çatdırılıb.

"Bu layihələr regionumuzun geosiyasi mənzərəsini dəyişmiş, enerji resurslarının təhlükəsiz və etibarlı şəkildə dünya bazarlarına çatdırılmasını təmin etmişdir. Xüsusilə də Azərbaycanın təşəbbüsü və Gürcüstanın fəal iştirakı ilə reallaşan "Cənub qaz dəhlizi" artıq Avropanın enerji təhlükəsizliyinin vacib komponentinə çevrilmişdir. Son aylarda Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı artaraq 14-ə çatıb ki, onlardan 10-u Avropa ölkəsidir", - deyən Baş nazir "yaşıl enerji" sahəsində əməkdaşlığa toxunub. O, Azərbaycan və Gürcüstanın bərpaolunan enerji mənbələrinin inkişafı və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" təşəbbüsü çərçivəsində də güclü tərəfdaşlar kimi çıxış etdiklərini bildirib.

Azərbaycanın regionun tranzit və enerji potensialının tam reallaşdırılması, dayanıqlı logistik zəncirlərin və "yaşıl enerji" dəhlizlərinin qurulması üçün bundan sonra da öz səylərini əsirgəməyəcəyi, bu istiqamətdə bütün tərəfdaşlarla açıq və qarşılıqlı faydalı əməkdaşlığa hazır olduğu diqqətə çatdırılıb.

## “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 306** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412, № 7, maddə 721) 2-ci hissəsində "2025-ci il oktyabrın" sözləri "2026-cı il yanvarın" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 307** **Bakı şəhəri, 21 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92, № 4, maddə 459, № 7, maddə 901, № 10, maddə 1172; 2025, № 2, maddə 183, № 4 (II kitab), maddə 413, № 7, maddə 724) 2-ci hissəsində "2025-ci il oktyabrın" sözləri "2026-cı il yanvarın" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy" incəsənət festivalının rəsmi saytında qeydiyyat başladı!

**Oktyabrın 31-dən noyabrın 2-dək incəsənət, mədəniyyət və ekologiyanı bir araya gətirən, Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin tərəfdaşlığı keçiriləcək "Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy" ("Fly to Baku. Art Weekend. Sense the Future NOW") layihəsinin rəsmi saytı (www.bakuartweekend.az) artıq fəaliyyətdədir. Saytda festivalın proqramı da incəsənətsevərlərin ixtiyarına verilib.**

AZƏRTAC xəbər verir ki, üç gün davam edəcək festivalın proqramında şəhərimizin müxtəlif ünvanlarında keçiriləcək 40-dan çox tədbir yer alıb. Festivalda iştirak üçün saytda qeydiyyatdan keçmək mütləqdir və bu xidmət artıq bu gündən aktivdir. Qeydiyyatdan keçən hər kəsin e-mail ünvanına QR kod göndəriləcək. Festivalın əsas dəstəkçilərindən olan RİİB könüllüləri festival müddətində QR kodların yoxlanılması və ümumilikdə iştirakçıların düzgün istiqamətləndirilməsində iştirak edəcəklər. Eyni zamanda festival zamanı uşaqlar üçün təşkil olunacaq əyləncəli proqramda iştirak edəcək hər bir uşağın valideynləri qeydiyyatdan keçməlidir. Festival zamanı bütün fəaliyyətlər ödənişsizdir.

Əlavə məlumat və suallar üçün *info@bakuartweekend.az* ünvanına müraciət edə bilərsiniz.



# Estoniya Azərbaycanla münasibətlərin bütün istiqamətlər üzrə dərinləşməsində maraqlıdır



**Oktyabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimizi birləşdirən dostluq münasibətlərindən və qarşılıqlı faydalı əməkdaşlıqdan söz açan parlamentin spikeri, dövlətlərarası münasibətlərin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, görüşlərin, eləcə də imzalanan sənədlərin mühüm rol oynadığını deyib. O həmçinin özünün üç il öncə Estoniyaya rəsmi səfəri çərçivəsində keçirilən görüşləri məmnunluqla xatırladıb.

Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə daha da inkişafı üçün yaxşı imkanların olduğu qeyd edilib.

Spiker Sahibə Qafarova qonağa Vaşinqton görüşü və Azərbaycan-Ermənistan arasında normallaşma prosesi ilə bağlı fikirlərini çatdırıb, həmçinin özünün Cenevrədə Ermənistan parlamentinin spikeri ilə baş tutan görüşü haqqında məlumat verib.

Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüş barədə məlumat verən Estoniyanın xarici işlər naziri Marqus Tsahkna, görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrini əhatə edən əməkdaşlığın dərinləşdirilməsi barədə fikir mübadiləsinin aparıldığını bildirib. Qeyd olunub ki, Estoniya Azərbaycanı regionda çox vacib tərəfdaş kimi görür və Azərbaycanla münasibətlərin bütün istiqamətlər üzrə dərinləşməsində maraqlıdır.

O, həmçinin Azərbaycan ilə Ermənistan arasında Vaşinqton görüşündə əldə olunan nailiyyətlər münasibətilə təbriklərini çatdırıb və ölkəmizin regionda sülhün, əmin-amanlığın, eləcə də əməkdaşlığın təmin olunmasındakı rolunu yüksək dəyərləndirib.

Söhbətdə parlamentlərarası əlaqələrin ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin vacib tərkib hissəsi olduğu vurğulanaraq, beynəlxalq platformalarda qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti, o cümlədən qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətinin vacibliyi qeyd olunub.

*"Azərbaycan"*

# Milli Məclisdə "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda elmi-praktik konfrans keçirilib

**Oktyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr edilən "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda konfrans keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Azər Əmiraslanov tədbiri açaraq, elmi-praktik konfransın keçirilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya rəhbərlik etdiyi komitənin üzvləri adından təşəkkürünü ifadə edib.

O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər ordumuzun rəşadəti nəticəsində Azərbaycanın Vətən müharibəsində qələbə qazanaraq, öz dövlət suverenliyini bərpa etdiyini, regionda yeni reallıqlar yaratdığını bildirib. Komitə sədri suverenliyin iqtisadi əsaslarının möhkəmləndirilməsinin qarşıda duran mühüm vəzifələrdən biri olduğunu deyib. Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayaraq, bu siyasətin siyasi müstəqilliklə iqtisadi müstəqilliyin vəhdətindən ibarət olduğunu qeyd edib. Ardıcıl, davamlı, müstəqil dövlət siyasətinin aparılması üçün iqtisadi əsasların vacibliyindən danışıb. Ölkə Prezidentinin dövlət suverenliyi ilə bağlı ifadə etdiyi "Azərbaycan müstəqil siyasət aparan dövlətdir və heç bir dairənin təsiri altına düşmür" fikrinin mühüm əhəmiyyət kəsb etdiyini və buna əsaslanan milli iqtisadiyyatın ötən illər ərzində möhkəmləndirildiyini söyləyib.

Komitə sədri iqtisadi müstəqilliyin mahiyyəti barədə danışaraq bildirib ki, bu, ölkənin iqtisadi siyasətinin xarici təsirlərə məruz qalmayaraq həyata keçirilməsi, müstəqil qərarların verilməsi, dövlətin strateji hədəflərinin, iqtisadiyyatın milli maraqlara uyğun formalaşması, iqtisadi təhlükəsizlik, uğurlu iqtisadi diplomatiya və digər bu kimi amillərlə şərtlənir. Dövlət suverenliyi və iqtisadi müstəqillik arasında sıx əlaqə mövcuddur. İqtisadi müstəqillik olmadan real dövlət suverenliyinin, dövlət suverenliyi olmadan isə milli iqtisadiyyatın inkişafı mümkün deyil. Qeyd edilib ki, siyasi suverenlik milli iqtisadi maraqları qorumaq imkanı yaradır.

Azər Əmiraslanov siyasi və iqtisadi müstəqilliyin möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin xidmətlərindən söhbət açıb. Ulu Öndərin dövlətçiliyin qorunması, dövlət idarəçiliyinin təşkili, vahid dövlət siyasətinin formalaşdırılması, dövlət quruculuğu ilə iqtisadi quruculuğun əlaqələndirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması, iqtisadi islahatların aparılması sahəsində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən danışıb. "Əsrin müqaviləsi"nin imzalanması, Neft Fondunun yaradılması, ölkənin yeni konstitusiyasının qəbulu, konstitusiyada iqtisadi inkişaf modelinin və onun prinsiplərinin müəyyən edilməsi, azad iqtisadiyyatın inkişafına konstitusion təminat verilməsində Heydər Əliyevin müstəsna rolunu qeyd edib.

Komitə sədri bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenliyin iqtisadi əsaslarının gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını diqqətə çatdırıb. Qeyd edib ki, hazırda ölkəmizdə müstəqil iqtisadi və siyasi xəttin saxlanılması prioritet kimi müəyyən edilib, güclü iqtisadiyyat - güclü dövlət prinsipi əsas götürülüb, enerji təhlükəsizliyinin təmin edilməsi, nəqliyyat-infrastruktur layihələrinin icrası ilə bağlı əhəmiyyətli addımlar atılmaqdadır.

O, yeni çağırışlar fonunda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi post-neft dövrü üçün iqtisadiyyatımızın şaxələndirilməsi, idxaldan asılılığın azaldılması, sənayeləşmə, kənd təsərrüfatının gücləndirilməsi və texnoparkların yaradılması, suverenliyin tərkib hissəsi olan ərzaq, enerji, informasiya təhlükəsizliyinin təmin edilməsi kimi strateji hədəflərin vacibliyini vurğulayıb.

Sonra tədbirdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Ziyad Səmədzadə çıxış edib. O, Azərbaycan dövlətinin dünyada mövqelərinin möhkəmləndirilməsinin, ölkəmizin qlobal təhdidlərə qarşı mübarizəsinin, milli maraqlara uyğun siyasətin həyata keçirilməsinin, hərtərəfli tərəqqinin təməlində Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strategiyanın dayandığını, iqtisadi müstəqilliyimizin formalaşmasında onun əvəzsiz rolunu vurğulayıb. Heydər Əliyevin adı ilə bağlı olan "Əsrin müqaviləsi"nin davamlı inkişaf, ölkə iqtisadiyyatının gücləndirilməsi baxımından mühüm əhəmiyyətindən bəhs edib. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikirlərini açıqlayıb.

Konfransda çıxış edən Auditorlar Palatasının sədri Vahid Novruzov bildirib ki, iqtisadi müstəqilliyin mahiyyəti dövlətin müstəqil iqtisadi siyasətin həyata keçirilməsində, təbii sərvətlərdən səmərəli istifadənin təmin edilməsində rolunu nəzərdə tutur. O, iqtisadi müstəqilliyin qarşısında duran məsələlərin dövlət quruculuğu prosesində əhəmiyyətindən danışıb. Palata sədri qeyd edib ki, müstəqilliyin ilk illərində iqtisadi müstəqilliyin əsas qayəsini neft strategiyası, müxtəlif sahələrdə aparılan islahatlar, özəlləşdirmə təşkil edirdisə, müasir dövrdə onun məqsədləri qeyri-neft sektorunun inkişafı, ixracın diversifikasiyası, rəqəmsal iqtisadiyyat, "yaşıl enerji", beynəlxalq əməkdaşlıq, dayanıqlı inkişaf, maliyyə sabitliyi və şəffaflığın təmin edilməsi kimi amillərdən ibarətdir. O, Azərbaycanın dövlət suverenliyinin tam bərpa olunduqdan sonra ölkənin iqtisadi potensialının daha da gücləndiyini söyləyib.

Konfransda parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli mövzu ilə bağlı fikirlərini açıqlayıb. O, iqtisadi münasibətlərin hüquqi normalarla tənzimlənməsi, ölkədə iqtisadi və hüquqi sahədə islahatların paralel olaraq həyata keçirilməsi nəticəsində uğurların əldə edildiyini bildirib. Komitə sədri Azərbaycanın müstəqilliyinin, o cümlədən iqtisadi baxımdan müstəqilliyimizin ideya müəllifinin Ümummilli Lider Heydər Əliyev olduğunu vurğulayıb. 1995-ci ildə qəbul edilmiş Ulu Öndərin müəllifi olduğu ölkə konstitusiyasının müasir dövlətin hüquqi, siyasi və iqtisadi əsaslarını ehtiva etdiyini söyləyib. Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilmiş referendumlara toxunan komitə sədri 2009-cu ildəki referendumla ölkənin ali qanununda iki vacib məsələnin - Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğunun və bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradılmasının təsbit edildiyini bildirib. Ötən illər ərzində ölkəmizdə konstitusiyaya əsaslanan sosialyönümlü siyasətin müvəffəqiyyətlə təmin olunduğunu və hazırda bu istiqamətdə növbəti təqdirəlayiq addımların atıldığını deyib.

Daha sonra konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində qısa müddət ərzində atəşkəsə nail olundu. Heydər Əliyev "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" ideyasına insanları inandırdı və sağlam qüvvələri öz ətrafında birləşdirdi. "Əsrin müqaviləsi" ilə Azərbaycan öz təbii resurslarını iqtisadi gücə çevirməyə başladı. O dövrdə xarici investisiyaların cəlb olunması, yeni sənaye infrastrukturunun yaradılması, kənd təsərrüfatının dirçəldilməsi Azərbaycanın iqtisadi müstəqilliyini təmin edəcək əsas amillər idi. Nazir müavini qeyd edib ki, hazırda Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi, siyası, hərbi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və makroiqtisadi sabitlik təmin olunub, torpaqlarımız işğaldan azad edilib, dövlət suverenliyimiz və müstəqilliyimiz tam bərpa edilib. Bununla yanaşı, o, cari il avqustun 8-də ABŞ-da keçirilmiş üçtərəfli görüşdə əldə edilmiş razılaşmaların Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilmiş hərbi zəfərin davamı olaraq Azərbaycan dövlətinin növbəti diplomatik uğuru kimi dəyərləndirib. Nazir müavini Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının həm iqtisadi, həm sosial rifah, həm də regionların balanslı inkişafı baxımından əhəmiyyətindən bəhs edib, bununla bağlı bəzi statistik göstəriciləri diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, müstəqilliyin ilk illərində Azərbaycan ciddi iqtisadi çağırışlarla üz-üzə qalıb. Lakin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə bu sahədə mühüm dönüş əldə edilib və Ulu Öndərin müdrik siyasi iradəsi ilə müstəqil Azərbaycanın iqtisadi suverenliyinin təməlləri yaradılıb.

Komitə sədri çıxışında Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenlik və iqtisadi müstəqillik konsepsiyasının yeni məzmun almasından danışıb. O, Azərbaycanın iqtisadi suverenliyinin qanunçuluq, strateji planlama və ekoloji məsuliyyət əsasında möhkəmləndirilməsi barədə fikirlərini bölüşüb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın real iqtisadi müstəqilliyinin başlanğıcı oldu. Komitə sədri vurğulayıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət kursu Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin möhkəmlənməsinə, habelə suverenliyinin daha da güclənməsinə töhfə verir.

Mərkəzi Bankın sədr müavini Əli Əhmədov bildirib ki, müstəqil və çevik pul-kredit siyasətinə malik olmaq milli iqtisadi təhlükəsizliyin əsas şərtlərindəndir. Qeyd edib ki, Azərbaycan qlobal qeyri-müəyyənlik şəraitində belə sabit və etibarlı maliyyə mühiti ilə seçilən ölkələrdən biridir. O, son illərdə Azərbaycanda inflyasiyanın nəzarətdə saxlanılması, valyuta bazarında sabitliyin qorunması və maliyyə institutlarının dayanıqlığının təmin olunması ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, Mərkəzi Bank bundan sonra da maliyyə sisteminin möhkəmləndirilməsi və davamlı iqtisadi artımın dəstəklənməsi istiqamətində fəaliyyətini ardıcıl şəkildə davam etdirəcək.

Maliyyə nazirinin müavini Azər Bayramov konfransda bildirib ki, fiskal dayanıqlılıq və səmərəli büdcə siyasəti iqtisadi müstəqilliyin əsas təminatçısıdır. Nazir müavininin sözlərinə görə, Azərbaycanın tətbiq etdiyi maliyyə intizamına əsaslanan siyasət büdcə sabitliyini qorumağa, fiskal riskləri minimuma endirməyə və milli iqtisadi təhlükəsizliyi təmin etməyə imkan verib. O qeyd edib ki, bu gün Azərbaycan öz iqtisadi qərarlarını milli maraqlar və daxili imkanlar əsasında formalaşdıran, xarici deyil, daxili imkanlar hesabına həyata keçirən ölkəyə çevrilib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov çıxış edərək rəqəmsal iqtisadiyyatın və dayanıqlı nəqliyyat şəbəkəsinin milli iqtisadi təhlükəsizlik və suverenliyin təminatında mühüm rol oynadığını bildirib. O deyib ki, Azərbaycanda həyata keçirilən rəqəmsal transformasiya strategiyası, beynəlxalq rəqəmsal və nəqliyyat-logistika layihələri ölkənin geoiqtisadi mövqeyini gücləndirməklə yanaşı, həm iqtisadi müstəqilliyin dərinləşməsinə, həm də sosial rifahın yaxşılaşmasına xidmət edir.

Konfransda Milli Məclisin deputatları Günay Ağamalı, Əli Məsimli, Asif Əsgərov, Tahir Mirkişili, Rizvan Nəbiyev, Mübariz Qurbanlı, Sahibkarlar (İşəgötürənlər)Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Dövlət Neft Fondunun icraçı direktorunun müavini Bəhruz Bəhramov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Güloğlan Muradlı çıxış ediblər. Çıxışçılar iqtisadi suverenliyin hüquqi, iqtisadi, fiskal, struktur və sosial dayaqları barədə danışıblar, dövlət müstəqilliyinin iqtisadi əsaslarının gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar və strateji proqramlar Azərbaycanın iqtisadi müstəqilliyini və suveren inkişaf modelini möhkəmləndirir.

Tədbirə yekun vuran İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konfransın səmərəli keçdiyini bildirib, konfransa gələnlərə və çıxış edənlərə təşəkkür edib.

*"Azərbaycan"*

# Azərbaycan parlament nümayəndə heyətinin üzvləri 151-ci Assambleya çərçivəsində keçirilən müzakirələrdə çıxış ediblər

**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti Parlamentlərarası İttifaqının (PAİ) 151-ci Assambleyasında iştirak etmək məqsədilə İsveçrə Konfederasiyasının Cenevrə şəhərində işgüzar səfərdə olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament nümayəndə heyətinin üzvləri assambleya çərçivəsində keçirilən müzakirələrdə iştirak və çıxış ediblər.

Belə ki, nümayəndə heyətinin üzvləri - deputat Sevil Mikayılova təşkilatın İcraiyyə Komitəsinin, Qadın Parlamentarilər Bürosunun iclaslarında, deputat Əminə Ağazadə isə təşkilatın Demokratiya və İnsan Haqları Daimi Komitəsinin iclaslarında və ümumi müzakirələrdə çıxış ediblər.

Milli Məclisin deputatı Kamran Bayramov PAİ-nin Sülh və Beynəlxalq Təhlükəsizlik və Birləşmiş Millətlər Təşkilatının işləri Daimi Komitələrinin iclaslarında və ümumi müzakirələrdə çıxış edib.

Azərbaycan parlament nümayəndə heyətinin üzvləri çıxışlarında müzakirə olunan mövzular, həmçinin təşkilatın gələcək fəaliyyətinə dair müxtəlif fikir və təkliflərini səsləndiriblər.

Nümayəndə heyətinin hər üç üzvü həmçinin Avrasiya Qrupunun Görüşünə də qatılıblar.

Assambleya çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının Koordinasiya görüşündə isə Milli Məclisin deputatı Rizvan Nəbiyev iştirak edib.

Qeyd edək ki, 151-ci Assambleya çərçivəsində təşkilata üzv ölkələrin parlamentlərinin Baş Katibləri Assosiasiyasının da növbəti sessiyası keçirilib. Tədbirdə Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev çıxış edərək, Milli Məclisdə rəqəmsal transformasiya sahəsində görülən işlər, tətbiq olunan müasir informasiya texnologiyaları və bu istiqamətdə əldə edilən nəticələr barədə məlumat verib.

Assambleya çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı ilə Milli Məclis arasında təşkilatın 20-ci sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair Anlaşma Memorandumu da imzalanıb. Sənədi təşkilatın baş katibi Muhammed Xurayçi Niyass və Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev imzalayıblar.

*"Azərbaycan"*

# Azərbaycan parlamentariləri Kolumbiyada səfərdə olublar

**Milli Məclisin Kolumbiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Müşfiq Cəfərov və qrupun üzvü Müşfiq Məmmədli Kolumbiyaya səfər ediblər. Səfər Kolumbiya Konqresinin Nümayəndələr Palatasının Azərbaycanla dostluq qrupunun dəvəti əsasında həyata keçirilib.**



Səfər zamanı Milli Məclisin deputatları Kolumbiya Konqresinin tarixi binası ilə tanış olublar, Nümayəndələr Palatası və Senatın plenar iclaslarında iştirak ediblər. Milli Məclisin deputatları Kolumbiya Konqresinin Nümayəndələr Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Pedro Suares və qrupun üzvləri ilə, həmçinin digər görüşlər keçiriblər. Senatın baş katibi Dieqo Qonsales, Nümayəndələr Palatasının baş katibinin müavini Raul Avila, "Colombia Humana" siyasi hərəkatının sədri Qloria Flores ilə keçirilmiş görüşlərdə parlament diplomatiyasının və qarşılıqlı səfərlərin iki ölkə arasında münasibətlərin inkişafında önəmli yer tutduğuna diqqət çəkilib, ümumi çağırışlarla mübarizədə parlamentlərin iştirak səviyyəsinin artırılmasının əhəmiyyətinə toxunulub. Tərəflər Azərbaycan və Kolumbiya arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin möhkəmləndirilməsi baxımından parlamentlərarası əməkdaşlığın genişləndirilməsi və yeni birgə təşəbbüslər barədə fikir mübadiləsi aparıblar.

Azərbaycanlı parlamentarilər həmçinin Kolumbiyanın səhiyyə naziri Qiyermo Xaramiyo və Kolumbiya xarici işlər nazirinin ofisinin rəisi, Kolumbiyanın 2019-2022-ci illərdə ölkəmizdə səfiri olmuş Luis Dimate ilə görüşüblər, Kolumbiya Konqresinin rəsmi televiziyası "Canal Congreso" və "El Mismo" yerli televiziya kanallarına müsahibələr veriblər.

*"Azərbaycan"*

# Humanitar diplomatiya





## Mehriban xanım Əliyevanın Vatikana səfəri həm də strateji diplomatik missiyadır

**Mədəniyyət siyasəti hər bir xalqın bəşəri miqyasda layiqli yerini tutmasında və tanınmasında mühüm rol oynayır. Çağdaş dünyamızın ən güclü dövlətləri də ilk növbədə mədəniyyətə xitab edir, gələcəyini qanlı savaşlarda deyil, mədəniyyətlərin dialoqunda görür və bu hədəf uğrunda çalışırlar.**

Hər birimiz razılaşarıq ki, sülhün, mədəniyyətlər arasında dialoqun, insanı qorumağın və onun rifahı üçün çalışmağın alternativi yoxdur. Bununla da Yer üzündə sağlam düşüncənin əhatəsi genişlənir, xoş niyyətlər ətrafında birləşən insanların sayı artır. Bu, sağlamlaşan düşüncənin dəyişdiyi dünyadır!

Bu gün tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uzun illərdən bəri həyata keçirilən beynəlxalq qlobal layihələr, humanitar təşəbbüslər ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarını təsdiqləyir. Bu layihələrin hər biri ölkəmizin imicini daha da artırır. Mədəniyyətlər arasında dialoq, tolerantlıq, multikulturalizm çağırışları ilə Azərbaycanın tutduğu yolu, ümumbəşəri dəyərlərə bağlılığını, yüksək amallarını göstərir. Ən mühüm amil olan bu dəyərlərin qorunmasına istiqamətlənən işlərin aparılmasına xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri ölkəmizin dini tolerantlıq, multikulturalizm və mədəni diplomatiya siyasətinə daha bir parlaq nümunə olmaqla yanaşı, Heydər Əliyev Fondunun uzun illərdir davam edən humanitar və mədəniyyət layihələrinin beynəlxalq səviyyədə tanıdılması baxımından böyük əhəmiyyət kəsb etdi. Mehriban xanım səfər proqramı çərçivəsində həm dini-mədəni, həm tibbi-humanitar, həm də diplomatik görüşlər keçirdi, Azərbaycanın dünyaya açıq və sülhpərvər siyasətini nümayiş etdirdi.

### Dialoq körpüsü

Vatikan dünyada yaşayan bütün katoliklərin qeyri-formal şəkildə Qərb xristian sivilizasiyasının mərkəzi hesab olunur. Azərbaycan isə islam dünyasında dini tolerantlığın və multikulturalizmin modeli kimi qəbul edilir. Bu baxımdan Azərbaycan-Vatikan münasibətləri islam və xristian dünyası arasında anlayış və dialoq körpüsü rolunu oynayır.

Oktyabrın 16-da Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak etdilər. Vatikanda yüksək səviyyədə qarşılanan Mehriban xanım Əliyeva burada həyata keçirilmiş bərpa işləri ilə tanış oldu. Pontifik Komissiya və Roma şəhərinin bələdiyyəsi layihənin icrasında Azərbaycanın mühüm dəstəyini qeyd etdi.

Vatikanın Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskuale Yakobone Birinci vitse-prezident Mehriban Əliyevanın uzun illərdir başçılıq etdiyi komissiya ilə çox yaxından və səmərəli əməkdaşlıq etdiyini bildirdi. Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihənin icra olunduğunu vurğulayan komissiyanın prezidenti Müqəddəs Marçelino və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpasına Heydər Əliyev Fondunun səyləri nəticəsində nail olduqlarını vurğuladı.

Paskuale Yakobone layihə çərçivəsində Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının üzvlərinin 2024-cü ilin iyulunda Azərbaycana yaddaqalan səfərini xatırlatdı. Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi isə ölkəmizə səmimi və dərin dostluq telləri ilə



bağlı olduğunu vurğulayaraq, Azərbaycana üç dəfə səfər etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü qeyd etdi. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açaraq dedi ki, bu münasibətlər uzun illər ərzində formalaşıb: "Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpaolunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq".

Katakombaların tarixi və dini əhəmiyyəti böyükdür. Açılış mərasimində qeyd edildi ki, Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin Vatikana səfəri zamanı 2021-ci il martın 4-də fond və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyası arasında Kommodilla katakombalarının bərpası ilə bağlı müqavilə imzalanıb. Bildirilib ki, katakombaların yerləşdiyi məkan XVIII əsrdə aşkar olunub, ilkin tədqiqatlar 1900-cü ildən başlanıb. Erkən xristianlıq dövrünə aid ilk artefaktların mövcud olduğu katakomba Felisio və Adauktus adlı xristian əzabkeşlərinin dəfn olunduğu məkan kimi də tanınır və orta əsrlərdə möminlərin ziyarətgahı olub. Bu yer, erkən xristianlıq dövrünə aid freskalar və dini artefaktlarla zəngindir. Ötən əsrin 50-ci illərində bu ərazidə yaşayış binalarının tikintisi katakombanın statikasına mənfi təsir göstərib. Heydər Əliyev Fondunun göstərdiyi dəstək katakombanın böyük arxeoloji dəyərə malik olan bu hissəsini uçmaq təhlükəsindən qoruyub. Bərpa zamanı müasir metodlar, nanotexnologiya və lazer texnologiyası tətbiq olunaraq, tarixi məkanın həm qorunması, həm də gələcək nəsillərə ötürülməsini təmin edib.

Mehriban Əliyeva açılış mərasimində Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadığı bir ölkə olduğunu, bu prinsiplərin həm dövlət siyasətimizin əsasını təşkil etdiyini, həm də həyat tərzimizə çevrildiyini diqqətə çatdırıb.

### Dini dəyərlərə qayğı

Səfərin mədəni diplomatiya hissəsi həm də Müqəddəs Pavel Bazilikasında davam etdi. Mehriban xanım Əliyeva burada aparılan bərpa işləri ilə tanış oldu, Baş Keşiş kardinal Ceyms Harvi ilə görüşərək, xüsusən Yubiley İli çərçivəsində bazilikada mərmər örtüklərin və dekorativ elementlərin təmiri və qorunmasına diqqət yönəltdi. Birinci vitse-prezident bunun Heydər Əliyev Fondunun böyük layihələrindən biri olduğunu xüsusi vurğuladı: "Roma elə bir şəhərdir ki, həm yerin altı, həm də üstü, demək olar, səma altında açıq muzeydir. Bizim fəaliyyətimiz elə qurulub ki, bəzi layihələr sona çatan kimi yeni layihələrə start veririk. Bu, çox davamlı əməkdaşlıqdır və mən onu yüksək dəyərləndirirəm". Diqqətə çatdırıldı ki, Müqəddəs Pavel Bazilikası Müqəddəs Pyotr Bazilikasından sonra Vatikanın ikinci ən böyük kilsəsidir. 1980-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Müqəddəs Pyotr Bazilikasında bərpa işləri ilə tanışlıq zamanı isə kardinal Mauro Qambetti də fondun layihələrinin yüksək səviyyədə həyata keçirildiyini bildirərək Azərbaycana təşəkkürünü çatdırdı. Qeyd edək ki, Müqəddəs Pyotr Bazilikası dünyanın ən böyük kilsəsi olmaqla katolik aləminin dini mərkəzi və memarlıq baxımından möhtəşəm tikilidir. Bu layihələr həm dini, həm mədəni, həm də diplomatik baxımdan Azərbaycanın beynəlxalq nüfuzunu artıran mühüm addımlardır.

### Tibbi-humanitar sahədə əməkdaşlıq

Səfər çərçivəsində Birinci vitse-prezident həm də Avropanın ən böyük pediatrik tibb mərkəzi "Bambino Gesu" xəstəxanasında oldu. Xəstəxana İtaliya dövləti tərəfindən maliyyələşdirilən və dövlət xəstəxanası kimi fəaliyyət göstərən qurum olmasına baxmayaraq, Müqəddəs Taxt-Tacın bir müəssisəsidir və birbaşa ona hesabat verir, onun rəhbərliyinə tabedir. Burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olan Mehriban Əliyeva, həmçinin Azərbaycanla nadir xəstəliklər və müasir tibbi texnologiyalar sahəsində əməkdaşlıq imkanlarını müzakirə etdi.

Bu səfər Heydər Əliyev Fondu, Azərbaycan Səhiyyə Nazirliyi və Vatikandakı müvafiq xəstəxana arasında əməkdaşlıq baxımından çox əhəmiyyətlidir. Bu il sentyabrın 10-da imzalanan Anlaşma Memorandumu çərçivəsində Azərbaycanda molekulyar genetika, klinik diaqnostika və nadir xəstəliklər üzrə tədqiqatların inkişafı üçün geniş şərait yaradılacaq, eləcə də azərbaycanlı alim və mütəxəssislərin qabaqcıl texnologiyalarla tanışlığı təmin olunacaq.

### Diplomatik görüşlər

Səfər proqramının ən mühüm məqamlarından biri də Mehriban xanım Əliyevanın Roma Papası XIV Leo ilə görüşərək Vatikan və Azərbaycan arasındakı münasibətlərin inkişafına dair fikir mübadiləsi aparması oldu. Papa Azərbaycanla ikitərəfli əlaqələrin dinlərarası və sivilizasiyalararası dialoqa təkan verdiyini, Heydər Əliyev Fondunun təşəbbüslərinin isə bu əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Bu istiqamətdə müzakirələr Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə də davam etdirildi. Mehriban xanım kardinal Parolinin ötən il ölkəmizin evsahibliyi etdiyi COP29 tədbirində iştirakını yüksək qiymətləndirdi, Azərbaycanın multikulturalizm və dini tolerantlıq modelini xüsusi vurğuladı. Görüş zamanı Azərbaycanda ikinci katolik kilsəsinin tikintisi məsələsi də müzakirə olundu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin artıq bununla bağlı müsbət qərar verdiyi bildirildi.

Mehriban xanım Əliyeva Vatikan qubernatorluğunun rəhbəri Raffaella Petrini ilə də görüşərək mədəni, dini və humanitar əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr apardı. Səfərin simvolik hissəsi kimi, Mehriban Əliyeva və Petrini Vatikan bağlarında nar ağacı əkdilər. Bu ağac Azərbaycan üçün həyat, bolluq, ailə bütövlüyü və məhsuldarlığın simvoludur, eyni zamanda həm Azərbaycan, həm də Vatikan üçün dostluğun, əməkdaşlığın rəmzi hesab olunur.

Vatikanda keçirilən görüşlərdə Birinci vitse-prezident açıq şəkildə vurğuladı ki, Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşayış modelini qorumaqla sülhün və qarşılıqlı hörmətin bərqərar olmasına töhfə verir. Bu sözlər eyni zamanda ölkəmizin ideoloji mövqeyini əks etdirirdi. Nəticə isə bu idi ki, Azərbaycanın mültikultural dəyərlərə verdiyi töhfələr təkcə siyasi əlaqələrin deyil, həm də diplomatik münasibətlərin göstəricisi kimi çıxış edir.

### Apostol Kitabxanası

Səfər çərçivəsində Mehriban xanım Əliyeva Vatikan Apostol Kitabxanası və Arxivini ziyarət edərək, Heydər Əliyev Fondunun, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə bərpa olunan və rəqəmsallaşdırılan nadir əlyazmalar, qədim xəritələr, sənədlər haqqında məlumat aldı.

Bu əməkdaşlıq Azərbaycanın tarixi və mədəni irsinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Apostol Kitabxanası dünyanın ən qədim və zəngin kitabxanalarından biridir, Arxiv isə Katolik Kilsəsinin yaddaşı kimi IX əsrdən günümüzədək olan dövrü əhatə edir. Əməkdaşlıq ərəfəsində bu layihələr Azərbaycan alimləri üçün nadir tarixi mənbələrə çıxış imkanı yaradacaq və ölkəmizin elmi potensialını beynəlxalq səviyyədə gücləndirəcək.

Nəticə etibarilə Mehriban xanım Əliyevanın Vatikana səfəri Azərbaycanın mədəni diplomatiya strategiyasının uğurlu nümunəsi, həmçinin dini tolerantlıq və multikulturalizm siyasətinin beynəlxalq səviyyədə daha bir təzahürüdür.

Heydər Əliyev Fondunun burada həyata keçirdiyi layihələr - Kommodilla katakombaları, Müqəddəs Pavel və Pyotr Bazilikalarının bərpası, Apostol Kitabxanası və "Bambino Gesu" xəstəxanası ilə əməkdaşlıq - Azərbaycanın dünyaya açıq və humanitaryönümlü siyasətini nümayiş etdirir.

Səfər həm də dini, mədəni və tibbi-humanitar əməkdaşlığın birləşdiyi kompleks modeldir, bu model gələcəkdə dövlətlərarası dialoqun, sülhün və mədəni əlaqələrin inkişafına nümunə olacaq. Mehriban xanım Əliyeva bu səfər vasitəsilə Azərbaycanı beynəlxalq mədəniyyət və humanitar təşəbbüslərin fəal iştirakçısı kimi təqdim etdi, ölkəmizin dünya səhnəsindəki nüfuzunu daha da möhkəmləndirdi.

Birinci vitse-prezident Mehriban Əliyevanın səfərləri, Heydər Əliyev Fondunun layihələri və dini abidələrin bərpası göstərir ki, Azərbaycan yalnız öz dəyərlərini deyil, həm də bəşəri mədəni irsi qoruma missiyasını üzərinə götürür. Beləliklə, bu münasibətlər mədəniyyətlərarası dialoqun praktik modeli kimi qəbul olunur və sülh yaradan dövlət kimi Azərbaycanın beynəlxalq imicini daha da möhkəmləndirir.

Vatikan ərazicə kiçik dövlət olsa da, mənəvi nüfuz baxımından dünya diplomatiyasında unikal mövqeyə malikdir. Müqəddəs Taxt-Tacın beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də və Avropa diplomatiyasında söz sahibi olması Azərbaycan üçün yumşaq gücün (soft power) genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycanın Vatikanla yaxın münasibətləri onun həm Qərb dünyasında nüfuzunu artırır, həm də mədəni və dini balanslı siyasət yürütmək imkanlarını genişləndirir. Bu, Azərbaycanın "yalnız enerji və coğrafiya ölkəsi deyil, həm də mənəvi və mədəni mərkəz" olması mesajını verir.

Vatikanla əməkdaşlıq Azərbaycanın həmçinin Qərb və Şərq arasında körpü olduğunun təsdiqidir. Belə əlaqələr Avropanın dini-siyasi mərkəzləri ilə qarşılıqlı və etimadlı münasibətlər qurmaqla yanaşı, həm də Azərbaycanın xarici siyasət kursunun balanslı və çoxvektorlu xarakterini nümayiş etdirir. Bu baxımdan Mehriban Əliyevanın səfəri yalnız humanitar xarakterli deyil, həm də strateji diplomatik missiyadır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Estoniyanın xarici işlər naziri Bakıda şəhidlərin xatirəsini anıb



**Ölkəmizdə səfərdə olan Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 22-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, nazir burada Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının mənzərəsini seyr edən qonaqlara Azərbaycan paytaxtında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Estoniyanın xarici işlər naziri Zəfər parkını ziyarət edib





**Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahkna oktyabrın 22-də Bakıdakı Zəfər parkını ziyarət edib. AZƏRTAC xəbər verir ki, burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

Nazir parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

## Azərbaycanın və Estoniyanın ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyindəki məsələlər müzakirə edilib

**Oktyabrın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Estoniyanın xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb.**







AZƏRTAC xəbər verir ki, Ceyhun Bayramov və Marqus Tsahkna arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşlərdə Azərbaycan-Estoniya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal məsələlər müzakirə edilib. Ölkələrimiz arasında siyasi dialoqun və qarşılıqlı səfərlərin davam etdirilməsi, hüquq-müqavilə bazasının gücləndirilməsi və eləcə də parlamentlərarası təmasların intensivləşdirilməsi imkanları xüsusunda fikir mübadiləsi aparılıb.

BMT, ATƏT və Avropa İttifaqı təsisatları çərçivəsində ölkələrimizin legitim maraqlarına hörmət və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə əməkdaşlıq əlaqələri nəzərdən keçirilib.

Azərbaycan ilə Estoniya arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivlərinə toxunulub, qarşılıqlı ticarət və investisiyaların artırılması üçün böyük potensialın mövcud olduğu bildirilib. Ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlıq əlaqələrinin vacibliyi vurğulanıb. Rəqəmsal iqtisadiyyat, bərpaolunan enerji və bağlantılar sahələrində əməkdaşlığın tam potensialından faydalanmaq üçün ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyanın fəaliyyətinin aktivləşdirilməsinin əhəmiyyəti qeyd olunub. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə danışılıb.

Söhbət zamanı nazir Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesi barədə son inkişaflar barədə məlumat verib, bu çərçivədə Vaşinqton Zirvəsinin nəticələri və sülh müqaviləsinin paraflanmasının tarixi əhəmiyyəti qeyd edilib. Regionda daimi sülhün bərqərar edilməsi və sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılmasının zəruriliyi vurğulanıb.

Görüşlərdən sonra birgə mətbuat konfransı təşkil olunub, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Qardaşlıq və etimad nümunəsi



**Azərbaycan-Qazaxıstan münasibətləri tarixi köklərə əsaslanmaqla möhkəmlənir, inkişaf edir və beynəlxalq müstəvidə bir nümunə kimi təqdim edilir. Siyasi iradənin və qarşılıqlı münasibətlərin, əməkdaşlığın təzahürü olan iqtisadi inkişaf, birgə layihələr, səmərəli görüşlər, imzalanan sənədlər dövlətləri və xalqları bir-birinə daha da yaxınlaşdırır.**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana budəfəki dövlət səfəri bu baxımdan əlamətdardır və geniş əks-səda yaradıb. Bu səfər əlaqələrin sistemli şəkildə inkişaf etdirildiyini, strateji tərəfdaşlığın daha da möhkəmləndiyini göstərir. "Bu gün Azərbaycanın Çin və Mərkəzi Asiya bazarlarına çıxmasında Qazaxıstan mühüm rol oynadığı kimi, Azərbaycan da Qazaxıstanın Şərqi və Qərbi Avropa ölkələrinə çıxış əldə etməsində böyük funksiyanı yerinə yetirir. Bu da hər iki dövlətin iqtisadi və siyasi mövqeyini möhkəmləndirir və dinamik inkişafa yeni imkanlar yaradır. Orta dəhliz layihəsi istiqamətində birgə səylər Azərbaycanın və Qazaxıstanın həm regionda, həm də qlobal ticarət sistemində rollarını genişləndirməklə, iqtisadi inkişafa yönəldilib. Rəqəmsal İpək yolu layihəsi bu baxımdan çox əhəmiyyətlidir və iki ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilməsi məqsədilə hazırlanıb", - deyə komitə sədrit bildirib.

T.Rzayev qeyd edib ki, iki ölkə arasında həyata keçirilən mühüm tədbirlər, forumlar, qarşılıqlı layihələr, investisiya qoyuluşları, birgə iqtisadi komissiyaların fəaliyyəti, iş adamlarının görüşləri, qarşılıqlı fikir mübadilələri əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir və gələcək inkişaf üçün olduqca vacib və əhəmiyyətlidir. Prezident İlham Əliyev bu baxımdan deyib: "Ötən on illiklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, orta türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni əlaqələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq".

Dövlət rəhbərlərinin qarşılıqlı səfərlərinin bu tərəfdaşlığı və müttəfiqliyi daha da möhkəmləndirdiyini vurğulayan komitə sədri deyib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin son illərdə Azərbaycana 6 dəfə səfər etməsi, işğaldan azad edilmiş ərazilərdə olması, Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə sərəncam verməsi və ən möhtəbər tədbirlərdə dövlətimizin haqlı mövqeyini dəstəkləməsi ölkələr arasında dostluğun, qardaşlığın aydın ifadəsidir. Prezident İlham Əliyev də son üç ildə Qazaxıstana yeddi dəfə səfər edib və qarşılıqlı səfərlər zamanı iqtisadi-ticari, nəqliyyat, mədəni-humanitar, elm, təhsil, turizm və digər sahələrdə 170 əhəmiyyətli sənəd imzalanıb.

T.Rzayev bildirib ki, Qazaxıstan-Azərbaycan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasından keçən 20 il ərzində iki ölkənin əməkdaşlıq münasibətləri çox genişlənib: "Keçən il ölkələr arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib, bu ilin səkkiz ayı ərzində isə bu rəqəm 547 milyon dollara çatdırılıb. Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika, neft-qaz, "yaşıl energetik"a, kənd təsərrüfatı sahələrində əməkdaşlıq durmadan inkişaf edir. Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisi uğurla davam etdirilir".

Komitə sədri vurğulayıb ki, hər iki ölkə Türk Dövlətləri Təşkilatında böyük rol oynayır və ən mötəbər tədbirlərdə birgə mövqedən çıxış edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin "Kazinform" agentliyinə verdiyi müsahibəsində ölkələrimizin qarşılıqlı əməkdaşlığı, sağlam dostluq, qardaşlıq münasibətləri aydın şəkildə ifadə edilib. Qazaxıstana səfər öncəsi verilmiş bu müsahibədə əksini tapan ifadələr göstərir ki, iki dost dövlətin uğurları artır, gələcək əməkdaşlıq üçün yeni yollar açılır. İqtisadi münasibətlər bütövlükdə türk dünyasının güclənməsinə hesablanıb və xalqların xoşbəxtliyinə xidmət edir. Dövlət başçısının da qeyd etdiyi kimi, Qazaxıstanın Azərbaycan ilə münasibətləri qardaşlıq və etimad nümunəsidir. Bu gün Azərbaycan-Qazaxıstan münasibətləri özünün ən yüksək inkişaf mərhələsindədir. İki qardaş ölkənin uğurları dövlətləri və xalqları birləşdirməklə daha böyük qələbələrdən xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Prezident İlham Əliyevin Qazaxıstanda səsləndirdiyi bəyanat regional sabitliyin və sülhün yeni mərhələsidir

**"Oktyabrın 21-də Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada mətbuata bəyanatlarla çıxış etdilər. Prezident İlham Əliyevin bəyanatı həm iki qardaş dövlətin münasibətlərinin dərinliyini, həm də regional sabitliyin və yeni geosiyasi reallıqların istiqamətini müəyyən edən strateji baxışı əks etdirdi. Dövlətimizin başçısının "Qazaxıstan bütün dünyada etibarlı tərəfdaş, milli maraqları çərçivəsində siyasət yürüdən dövlət kimi həm də yaxşı dostdur" fikri diplomatik ehtiramla yanaşı, türk dünyasının birliyinə əsaslanan siyasi təfəkkürün ifadəsidir. Bu fikrin arxasında həm ortaq tarixi köklər, həm də bugünkü strateji məqsədlər dayanır. Prezident İlham Əliyevin "xalqımız üçün ən ağır dövrlərdə biz Qazaxıstanın qardaş dəstəyini hiss etmişik" deməsi, həm də gələcəyə ünvanlanan etimadın təsdiqidir. Bu bəyanat göstərir ki, Azərbaycan-Qazaxıstan münasibətləri ideya və dəyərlər birliyinə əsaslanan strateji tərəfdaşlıq modelidir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Milli Məclisin deputatı bildirib ki, Prezident İlham Əliyevin bəyanatında xüsusi yer tutan əsas mövzulardan biri Azərbaycan-Ermənistan sülh prosesidir. Dövlətimizin başçısı xatırlatdı ki, Vaşinqtonda Prezident Trampın iştirakı ilə sülh sazişi paraflandı və Qazaxıstan bu məsələyə münasibət bildirən ilk ölkələrdən biri oldu. Bu bəyanat regionda yeni diplomatik mərhələnin başlandığını göstərir. Azərbaycanın təşəbbüsləri sayəsində Cənubi Qafqazda artıq sülh sənədləri kağız üzərində deyil, real həyatda formalaşır. Prezident İlham Əliyevin "Azərbaycan Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırıb" fikri isə bunun praktik göstəricisidir. Bu, Prezident İlham Əliyevin çoxillik siyasi strategiyasının davamıdır - sabitlik yalnız silahın susması ilə deyil, iqtisadi inteqrasiya və qarşılıqlı maraqlar əsasında bərqərar olur. Prezident İlham Əliyevin çıxışında diqqətçəkən əsas strateji mövzulardan biri nəqliyyat-logistika sisteminin gələcəyinə dair mesajlar idi. Dövlətimizin başçısı vurğulayıb: "Zəngəzur dəhlizi layihəsi böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq". Bu bəyanat Azərbaycanın artıq Avrasiyanın əsas tranzit və ticarət mərkəzinə çevrildiyini göstərir. Zəngəzur dəhlizinin 2028-ci ilin sonuna qədər tam istifadəyə verilməsi regionun iqtisadi xəritəsini köklü şəkildə dəyişəcək, Orta dəhliz ilə birləşərək, Asiyadan Avropaya qədər yüklərin daha təhlükəsiz və sürətli daşınmasına imkan yaradacaq. Bununla yanaşı, Prezident İlham Əliyev TRIPP layihəsinin əhəmiyyətini qeyd edərək bildirdi ki, bu marşrut Orta dəhlizin daha bir seqmentini formalaşdıracaq. Beləliklə, Azərbaycan yalnız enerji və logistika sahəsində deyil, qlobal sülh və iqtisadi tərəfdaşlıq modelində də aparıcı mövqeyini möhkəmləndirir.

S.Möhbalıyev həmçinin deyib ki, Prezident İlham Əliyevin bəyanatında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq ayrıca strateji xətt kimi qeyd edildi. Gələn il Bakıda keçiriləcək həm İslam Əməkdaşlıq Təşkilatının Sammiti, həm də Qazaxıstanın təşəbbüsü ilə formalaşan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinin Sammiti Azərbaycanın beynəlxalq diplomatiyada mərkəzi rola malik olduğunu göstərir. Bu tədbirlər türk dünyasının iqtisadi, siyasi və humanitar inteqrasiyasının real dayaqlarını möhkəmləndirəcək. Prezident İlham Əliyevin dediyi kimi, "biz bütün beynəlxalq platformalarda demək olar ki, vahid mövqedən çıxış edirik". Bu, artıq birgə strateji kimliyin ifadəsidir. Azərbaycan Prezidenti çıxışında Qazaxıstanın Qarabağın bərpasında iştirakını xüsusi minnətdarlıqla qeyd etdi. Füzulidə açılmış Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi bu qardaşlığın rəmzi kimi təqdim olundu: "Hər bir Azərbaycan vətəndaşı həmin mərkəzdən keçərkən qardaş köməyinin şahidi olur". Bu, həm Böyük qayıdış layihəsinin mənəvi dəyərini, həm də türk dövlətləri arasında qardaşlıq bağlarının praktik təzahürünü göstərir. Bu əməkdaşlıq modeli regionda humanitar diplomatiyanın ən gözəl nümunəsidir.

"Prezident İlham Əliyev bildirib ki, Cənubi Qafqaz və Mərkəzi Asiya artıq vahid coğrafi məkan çərçivəsində çıxış edir. Bu yanaşma yeni regional arxitekturanın siyasi əsaslarını müəyyənləşdirir. Azərbaycan-Qazaxıstan tandemi bu sistemin təməl sütunlarından biridir. Əgər ötən onilliklərdə bu əlaqələr daha çox iqtisadi və mədəni əməkdaşlıq üzərində qurulurdusa, bu gün artıq təhlükəsizlik, nəqliyyat, enerji və sülh məsələlərini əhatə edən kompleks strateji modelə çevrilib. Prezident İlham Əliyevin Qazaxıstanda səsləndirdiyi bəyanat bir daha göstərdi ki, Azərbaycan artıq regional oyunçu deyil, qlobal proseslərdə fəal rol oynayan, lider dövlətdir. Bu liderlik dövlətimizin başçısının uzaqgörən siyasəti, prinsipial mövqeyi və milli maraqlara əsaslanan diplomatiya fəlsəfəsi üzərində qurulub. Azərbaycan bu gün Cənubi Qafqazda sabitliyin, sülhün və iqtisadi inteqrasiyanın əsas təminatçısıdır. Zəngəzur dəhlizi, Orta dəhliz və TRIPP layihələri ölkəmizi Avrasiyanın əsas logistika və enerji mərkəzinə çevirəcək. Bu iqtisadi güc, siyasi etimadla birləşərək Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək", - deyə deputat vurğulayıb.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sülh diplomatiyası təkcə Ermənistanla münasibətləri normallaşdırmır, həm də regionda yeni əməkdaşlıq modelini formalaşdırır. Bu modelin əsas prinsipi sadə, lakin dərinməzmunludur - ədalət, qarşılıqlı hörmət və real inkişaf. Gələcəyə baxışda Azərbaycanın qarşısında üç əsas istiqamət prioritet olaraq qalır. Enerji və nəqliyyat arteriyalarında liderlik mövqeyinin qorunması, türk dünyası inteqrasiyasının siyasi və iqtisadi əsaslarının dərinləşdirilməsi və Qafqazda sülh və sabitliyin uzunmüddətli institusional təminatı. Bu istiqamətlər Azərbaycanın milli güc konsepsiyasının ayrılmaz hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq Cənubi Qafqazda yeni geosiyasi nizamın memarı, türk dünyasında birləşdirici qüvvə, Avrasiya miqyasında isə sabitliyin və inkişafın təminatçısıdır. Beləliklə, Qazaxıstanda səsləndirilən bəyanat təkcə diplomatik çıxış deyil, Azərbaycanın gələcək siyasi və iqtisadi vizyonunun konseptual ifadəsidir.

## Azərbaycan və Qazaxıstanın əməkdaşlığı genişlənir



**Cənubi Qafqazla Mərkəzi Asiya arasında əlaqələrin dərinləşməsi regiondakı ölkələrin də münasibətlərinin inkişafını zəruri edir. Azərbaycan-Qazaxıstan münasibətləri də bu mənada xüsusi əhəmiyyətə malikdir. Bakı ilə Astana siyasi əlaqələri yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur.**

Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Qazaxıstanın "Kazinform" agentliyinə müsahibəsində də qeyd olunduğu kimi, ölkələrimiz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurub. Təbii ki, fəal və konstruktiv dialoq bu əlaqələrin hərtərəfli inkişafını şərtləndirir.

Deputat Azərbaycan Prezidentinin son 3 ildə Qazaxıstana 7 dəfə səfər etdiyini diqqətə çatdıraraq, bildirib ki, budəfəki səfərin də çox zəngin gündəliyi olub: "Tərəflər bütün istiqamətlər üzrə geniş fikir mübadiləsi aparıblar. İyirmi il ərzində, yəni strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasından etibarən müxtəlif sektorlarda əməkdaşlıq daha da genişlənib. Yeni yaradılan Ali Dövlətlərarası Şura çərçivəsində çoxsaylı faydalı müzakirələr aparılır. Hər iki dövlət Türk Dövlətləri Təşkilatı başda olmaqla, bütün nüfuzlu beynəlxalq qurumlarda bir-birini dəstəkləyir".

N.Məmmədova deyib ki, iqtisadi sahədə də Bakı və Astana üçün ortaq əməkdaşlıq əlaqələri mövcuddur. Prezident Qazaxıstan mətbuatına müsahibəsində də qeyd etdi ki, bu günə qədər Azərbaycanda Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitində yüksək etimadı təsdiq edir və iqtisadi qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

N.Məmmədova qeyd edib ki, burada, təbii ki, Orta dəhlizin vacibliyi xüsusi qeyd edilməlidir. Belə ki, dəhliz davamlı və səmərəli əlaqələrin təmin edilməsində əsas rol oynayır. "2022-ci ildə imzalanan Orta dəhlizin inkişafı və istismarı üzrə "2022-2027-ci illər üçün Yol Xəritəsi" Azərbaycan, Türkiyə və Qazaxıstanın nəqliyyat-logistika infrastrukturunun inkişafını, əlavə yük axınının cəlb edilməsini nəzərdə tutur. Təsadüfi deyil ki, 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cuilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Azərbaycan və Qazaxıstan liderlərinin iştirakı ilə "Orta dəhlizin inkişafı" birgə layihəsinin təqdimatı da keçirilib", - deyə o əlavə edib.

N.Məmmədova Prezidentin dövlət səfəri zamanı müzakirə mövzularından birinin də Zəngəzur dəhlizi ilə bağlı olduğunu bildirib və qeyd edib ki, cənab İlham Əliyev (TRIPP) dəhlizin açılmasının 2028-ci ilin sonunadək baş tuta biləcəyini deyib.

Deputat vurğulayıb ki, yeni nəqliyyat marşrutları regionun beynəlxalq ticarətə inteqrasiyasını gücləndirir: "Bu səbəbdən dövlətlər sağlam rəqabət fonunda maliyyə sabitliyini qoruyub saxlamağa çalışırlar. Azərbaycan və Qazaxıstan həm də Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisi layihəsini icra edir. Bu, rəqəmsal inteqrasiyanı gücləndirərək tərəflərə əlavə dividendlər qazandıracaq.Məlum geosiyasi dəyişikliklər fonunda Mərkəzi Asiya və Cənubi Qafqaz regionları üçün çoxvektorlu əməkdaşlığın genişlənməsi bütün tərəflər üçün vacibdir. Bu kontekstdə müxtəlif iqtisadi və hərbi-strateji təşkilatlar çərçivəsində strateji təşəbbüslərin icrası qlobal aktorların da bu regiona marağını artırır. Region ölkələri isə iqtisadi-siyasi dialoqla yanaşı, təhlükəsizlik tədbirlərini gücləndirmək istiqamətində də yeni prioritetlər müəyyənləşdirməkdədirlər. TDT çərçivəsində hərbi əməkdaşlığın dərinləşməsi də bu mənada xüsusi önəm kəsb edir".

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

## Azərbaycan və Qazaxıstan arasındakı layihələr qlobal ticarət və enerji təhlükəsizliyinə dəstək məqsədi daşıyır

**"Prezident İlham Əliyev son 3 ildə Qazaxıstana 7-ci səfərini həyata keçirdi. Bu səfərlər ikitərəfli əlaqələrin möhkəmlənməsinə xidmət etməklə yanaşı, həm də ümumilikdə türk dünyasında əməkdaşlıq və iş birliyinin inkişafına, qardaşlığın və həmrəyliyin möhkəmlənməsinə töhfə verir. Xüsusilə 2022-ci il əlamətdardır. Belə ki, həmin ildə Türkiyə, Azərbaycan və Qazaxıstan ərazisindən keçən Orta dəhlizin inkişafı üçün 2022-2027-ci illəri əhatə edən "Yol xəritəsi" qəbul olunub, fəaliyyət planı təsdiqlənib. Hazırda bu plan üzrə işlər davam etdirilir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə söyləyib.

O bildirib ki, 2024-cü ildən etibarən Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Qazaxıstan neftinin ixracına başlanılıb. Ötən il Bakı-Tbilisi-Ceyhan vasitəsilə 1,4 milyon ton Qazaxıstan nefti daşınıb və qarşıdakı dövrdə bu həcmin artırılması nəzərdə tutulur. Türk Dövlətlər Təşkilatının 2025-ci ildə keçirilən 12-ci Qəbələ Zirvə görüşünün yekun bəyannaməsində Trans-Xəzər marşrutunun genişləndirilməsi məqsədi elan olunub. Başqa sözlə, Orta dəhlizin inkişafı çərçivəsində Xəzər dənizində enerji və nəqliyyat infrastrukturunun inkişafı nəzərdə tutulur. Bu, yalnız neft-qaz tranzitini deyil, həm də "yaşıl enerji dəhlizi"nin yaradılmasını, Rəqəmsal İpək yolu çərçivəsində Azərbaycanı və Qazaxıstanı birləşdirən Xəzər sualtı fiber-optik xəttin çəkilməsini və nəqliyyat-logistika imkanlarının genişləndirilməsini əhatə edir.

"Prezident İlham Əliyevin səfəri Azərbaycan ilə Qazaxıstan arasında Orta dəhliz üzrə ikitərəfli və çoxtərəfli layihələrin inkişafına, humanitar əlaqələrə, Xəzər dənizinin ekoloji problemlərinin həllinə, qarşılıqlı sərmayələrin artırılmasına və türk birliyinə əsaslanan mədəni əlaqələrin gücləndirilməsinə həsr olunub. Səfər çərçivəsində iki ölkə prezidenti "Orta dəhlizin inkişafı (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsini təqdim ediblər. Xüsusilə Çin ilə Avropa arasında artan ticarət dövriyyəsində Azərbaycan və Qazaxıstan ərazilərindən qlobal daşımaların, eləcə də Qərbin enerji təhlükəsizliyində bu iki ölkənin rolunun getdikcə artması diqqət çəkir. Bu, türk dünyasının mühüm resurs və imkanlara, böyük potensiala malik olduğunu, geosiyasi təsir mexanizmlərinin yaradıldığını göstərir", - deyə Ş.Cəlilzadə vurğulayıb.

Ekspert əlavə edib ki, bütün bunlar türk dünyasının vahid məqsədlərinə və vizyonuna xidmət etməklə yanaşı, qlobal sülhə, əməkdaşlığa, münaqişə və təhdidlərdən kənarda yeni infrastrukturun inkişafı vasitəsilə digər region dövlətlərinin təhlükəsizlik qayğılarının aradan qaldırılmasına töhfə verə bilər.

# Üç ildə 13 qarşılıqlı səfər

## Azərbaycan-Qazaxıstan münasibətləri möhkəm təmələ əsaslanır

*Əvvəli 1-ci səh.*

İkitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur.

İlham Əliyevin də söylədiyi kimi, son üç ildə Azərbaycan Prezidentinin qardaş ölkəyə yeddi, həmin müddət ərzində Prezident Kasım-Jomart Tokayevin Azərbaycana altı dəfə səfər etməsi iki dost və qardaş ölkənin münasibətlərinin yüksələn xətlə inkişaf etdiyinin təsdiqidir.

Ötən illər ərzində iki ölkə arasında möhkəm hüquq-müqavilə bazası yaradılıb. Belə ki, tərəflər arasında indiyədək təqribən 170 sənəd işlənib hazırlanıb. Siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaradılıb. Oktyabrın 21-də isə bu sənədlər sırasına daha bir neçəsi əlavə olunub. Astanada dövlət başçılarının iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin mübadiləsi mərasimi keçirilib. İki ölkə arasında əvvəlcə prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanmasının 20 illiyi münasibətilə Birgə Bəyanatı"nı, "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının



ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə dair 1 saylı Qərarı"nı və "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Xarici İşlər Nazirləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə 2 saylı Qərarı"nı imzalayıblar. Sonra isə müvafiq nazirliklər, komitələr arasında qarşılıqlı olaraq 11 yeni müqaviləyə imza atılıb.

Prezidentlərin mətbuata bəyanatlarında isə Qazaxıstanın dövlət başçısı son illərdə Azərbaycanın qlobal nüfuzunun yüksəldiyini və bunun da yeganə səbəbinin İlham Əliyevin yürütdüyü tam müstəqil siyasət olduğunu vurğuladı. İlham Əliyevi tarixi miqyasda görkəmli dövlət xadimi kimi dəyərləndirən qazaxıstanlı həmkarı qeyd edib ki, o, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə və möhkəmləndirilməsinə həlledici töhfə verib. Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın dünya arenasında nüfuzu və təsiri dəfələrlə güclənib. Onun güclü liderliyi ilə Azərbaycan bir çox sahədə, hər şeydən əvvəl sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. "Genişmiqyaslı islahatların nəticələri iqtisadiyyatın davamlı artımında, vətəndaşların rifahının yüksəldilməsində, Sizin ölkənizin dinamik şəkildə dəyişməsində öz əksini tapır. Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri dayanıqlılığı ilə fərqlənir və ölkənin tərəqqisinin, iqtisadiyyatınızın yaxşı formada olmasının inandırıcı göstəricisidir".

Kasım-Jomart Tokayev həmçinin ABŞ-də Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımı çox yüksək qiymətləndirib: "Prezident İlham Heydər oğlu Əliyev Prezident Trampın fəal vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh Bəyannaməsinin imzalanması üzrə tarixi missiyanı yerinə yetirib. Qazaxıstan da bu mühüm hadisəni rəsmi olaraq alqışlayıb. Əminəm ki, əldə olunan razılaşmalar Cənubi Qafqazda abhavanı möhkəmləndirəcək, ümumi tərəqqi üçün yeni imkanlar açacaq".

Kasım-Jomart Tokayev deyib ki, ümumilikdə səfərin yekunları Qazaxıstan-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq, müttəfiqlik ruhunda qardaş xalqların rifahı naminə gələcək inkişafına qarşılıqlı surətdə hazır olduqlarını əyani şəkildə nümayiş etdirir.

Prezident İlham Əliyev isə vurğulayıb ki, xalqlarımızı ümumi köklərə, mənəvi və mədəni ortaqlığa əsaslanan çoxəsrlik dostluq, qardaşlıq birləşdirir. Dövlətlərarası münasibətlərimizi bu möhkəm bünövrə üzərində qururuq. Hətta son üç ildə ondan çox qarşılıqlı səfərlərə baxdıqda münasibətlərin necə intensiv xarakter daşıdığını əyani şəkildə görmək olar: "Hər bir görüş, hər müzakirə son nəticəyə yönəlib. Bu gün sahə nazirliklərinin hesabatlarını, həmçinin gələcək planları dinlədik. Təbii ki, qarşılıqlı fəaliyyətimizi necə intensivləşdirmək lazım olduğuna dair öz əlavə təlimatlarımızı verdik. Bizim eşitdiklərimiz məmnunluq hissi doğurur. Çünki nəzərdə tutulanların hamısı yerinə yetirilir. Diqqət yetirilməsi və dövlət başçılarının iştirakı tələb edilən məsələlər olduqda, təbii ki, bu, bizim daimi nəzarətimiz altındadır".

Oktyabrın 21-də Astanada keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclasında isə iki qardaş ölkə arasında iqtisadi münasibətlərin daha da dərinləşməsi, imkanların genişləndirilməsi məsələləri müzakirə mövzusu olub.

İlham Əliyev vurğulayıb ki, bu gün ölkələrimiz arasında fəal qarşılıqlı fəaliyyət həm də çox ciddi geosiyasi əhəmiyyətə malikdir. Dövlət başçısı eyni zamanda deyib ki, avqustun 8-də Vaşinqtonda keçirilən sammit mahiyyətcə çoxillik münaqişəyə son qoyub və inkişaf, o cümlədən geniş regional kontekstdə - Avrasiya qitəsində tərəqqi üçün böyük perspektivlər açıb. Zəngəzur dəhlizinin yaxın illərdə açılması isə nəqliyyat və logistika ilə bağlı məsələlərdə ötürücülük qabiliyyətini xeyli artıracaq və Orta dəhlizə böyük töhfələr verəcək.

Bu gün yeni nəqliyyat yolları açıldıqca, geniş Avrasiya regionu ilə bağlı layihələr həyata keçirildikcə Cənubi Qafqaz və Mərkəzi Asiya daha çox bir-birinə bağlanır və bir çox halda vahid coğrafi məkan çərçivəsində çıxış edir.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin böyük perspektivləri mövcuddur. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır.

Bakı ilə Astana arasında əməkdaşlığın hazırkı səviyyəsi sabit dinamika və yüksək etimad səviyyəsi ilə fərqlənir, danışıqların nəticələri isə iqtisadiyyat, nəqliyyat və texnologiyalar sahələrində yeni birgə təşəbbüslər üçün əsas yarada bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gürcüstan mətbuatı Prezident İlham Əliyevin Qazaxıstana səfəri zamanı səsləndirdiyi fikirlərə geniş yer verib









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına dövlət səfəri və bu səfər çərçivəsində söylədiyi fikirlər Gürcüstan mətbuatının diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, interpressnews.ge, sputnik qruziya, Palitranews.ge, qafqazturk.com, 24 news.ge informasiya portalları, eləcə də 1Tv.ge televiziya kanalı Azərbaycan, rus və gürcü dillərində materiallar dərc ediblər.

Prezident İlham Əliyevin mətbuata bəyanatında söylədiyi fikirlərdən gətirilən sitatda deyilir: "Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".

Orta dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı dövlətimizin başçısının fikirləri də diqqət mərkəzində olub: "Bu gün Orta dəhliz layihəsinin reallaşdırılması çərçivəsində əldə olunanlar, həmçinin qarşıdakı planlarla bağlı təqdimat da etdik. Bununla yanaşı, öz tərəfimdən əlavə etmək istəyirəm ki, hazırda biz hər şeyi planlaşdırır və həyata keçiririk, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində avtomobil və dəmir yolu əlaqəsi üzrə bütün işlər gələn ilin ortalarında başa çatdırılacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də bütün bunlar analoji sürətlə həyata keçiriləcək və belə olan halda Zəngəzur dəhlizinin açılışı 2028-ci ilin sonuna qədər baş verə bilər".

Gürcü mətbuatı dövlət başçılarının iştirakı ilə "Orta dəhlizin inkişafı" (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatı barədə məlumat yayıb.

Qeyd edilib ki, Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Vurğulanıb ki, Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır.

# Müasir dövrün qlobal çağırışları həm də mənəvi dəyərlərin qorunmasını tələb edir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu (AİI), Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə təşkilatçılığı ilə "Müasir din təhsili modelləri: mənəvi dəyərlər və qlobal çağırışlar kontekstində" mövzusunda keçirilən beynəlxalq simpozium öz işinə başlayıb.**




Dövlət rəsmilərinin, dini konfessiya təmsilçilərinin, yerli ali təhsil və tədqiqat müəssisələrindən olan nümayəndələrlə yanaşı, Türkiyə, Özbəkistan, Qazaxıstan, Pakistan, İndoneziya, Malayziya, Gürcüstan, Albaniya, ABŞ, Rusiya, İsveçrə, BƏƏ, Misir və İraqın nüfuzlu universitetlərinin rəhbərlərinin də yer aldığı, 40-a yaxın alim və mütəxəssisin iştirak etdiyi simpozium Dövlət himnimizin səsləndirilməsi ilə öz işinə başladı. Sonra AİI-nin II kurs tələbəsi Cəlal Cəfərlinin təqdimatında müqəddəs kitabımız "Qurani-Kərim"dən surə oxundu.

Simpoziumda açılış nitqi ilə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirdi ki, uzun illər ərzində xalqın tarixi yaddaşında, ictimai şüurunda din və təhsil az qala əks qütbdə dayanan iki fərqli, bir-birinə zidd anlayışlar kimi stereotipləşmişdi. Bu, bəlkə də onunla bağlı idi ki, sovet təhsil sistemi bizə dini xurafatın, təhsili isə elmin ilk pilləsi, bəzən hətta fundamental əsası kimi təqdim etmişdi. Lakin bu gün elə bir dünyada yaşayırıq ki, bütün keçmiş stereotipləri sındıraraq hər bir anlayışın fəlsəfəsini kəşf etməyə çalışırıq.

Müasir dövrdə cəmiyyət xurafatın və mifologiyanın təlqin etdiyi tezislər əsasında deyil, elmi-texniki nailiyyətlər, tədqiqatlar, araşdırmalar əsasında əldə edilmiş nəticələrlə idarə olunur. Elə bir zamana gəlib çatmışıq ki, həyatımızın bütün sahələrinə sirayət edəcək süni intellektin kövrək, lakin qətiyyətli addım səslərini eşidirik. Həmin səslərə qulaq verdikcə ictimai münasibətlər sisteminin nə qədər sürətlə dəyişdiyinin fərqinə varırıq. Bu, elə bir münasibətlər sistemidir ki, dinin özünü də öyrənilməsi vacib olan xüsusi bir sahə kimi qəbul edir. Bu mənada ilahiyyat elminin meydana gəlməsi məhz dinə elmi yanaşmanın məntiqi yekunudur.

Bəşəriyyət yaradılışdan bəri bir çox suala cavab axtarıb. O sualların bir hissəsinin cavabını biz məhz elmdə tapmışıq, təhsildə öyrənmişik. Lakin hələ də insanların cavabını dində, inanclar sistemində axtardığı çoxlu sual var. Əlbəttə ki, onlar bu axtarışlarında haqsız və əsassız deyillər.

Ən azı ona görə ki, bir çox halda bu sualların cavabını məhz dində tapa bilirlər. Ancaq bəzən bu cavablar çoxlu mübahisəyə, müzakirəyə yol açır, yeni suallar doğurur. Bu suallara, müzakirə və mübahisələrə aydınlıq gətirmək üçün biz yenə də elm adamlarına - ilahiyyatçılara üz tuturuq. Elm və dinin bu qaçılmaz ittifaqı bizə dünyanı daha yaxşı dərk etmək şansı verir. Bu şansı doğru istifadə etməyin yolu isə təhsildən keçir. Azərbaycan dövlətinin siyasətinin əsas məqsədlərindən biri də bundan ibarətdir ki, din haqqında təsəvvürlər elmi biliklər əsasında formalaşmalıdır.

Komitə sədri daha sonra xüsusi olaraq vurğulamışdır: "Din, sadəcə, ehkamlardan ibarət deyil, sərhədlərini müəyyən etməkdə çətinlik çəkdiyimiz geniş bir informasiya məkanıdır. Dini öyrənmək üçün xüsusi maraq lazımdırsa, öyrətmək üçün, sözün həqiqi mənasında, dərin biliyə, erudisiyaya, eyni zamanda elmi məntiqə malik olmaq vacibdir. Dini tədris etməyin özü də xüsusi biliklər, elmi düşüncə və pedaqoji bacarıq tələb edir".

Komitə sədri onu da vurğulamışdır ki, ölkəmiz dünyada dövlət-din münasibətləri modelinin ən yaxşı nümunələrindən birini yaratmağa müvəffəq olub və biz haqlı olaraq bununla fəxr edirik. Əminəm ki, dini təhsilin də ən uğurlu modellərindən biri də məhz multikulturalizmin, tolerantlıq ənənələrinin həyat tərzinə çevrildiyi Azərbaycanda yaradıla bilər.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək bildirmişdir ki, müasir dünyada dinin rolu təkcə mənəvi dəyərlərin qorunması ilə məhdudlaşmır, həm də cəmiyyətlər arasında qarşılıqlı anlaşma və tolerantlığın möhkəmlənməsinə xidmət edir. Azərbaycanın zəngin qeyri-maddi mədəni irsi ölkəmizin tarixinin, milli kimliyinin ayrılmaz hissəsidir. O həmçinin Qarabağın işğaldan azad edilməsindən sonra dini abidələrin bərpasına xüsusi diqqət yetirildiyini, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədə mühüm təşəbbüslərlə çıxış etdiklərini vurğuladı.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov Azərbaycanda milli-dini tolerantlığın dünyada ən yüksək səviyyədə olduğunu qeyd edərək bunun ölkədə mühüm dövlətçilik siyasətinin həyata keçirilməsindən qaynaqlandığını dedi. Deputat onu da qeyd etdi ki, bu cür tədbirlərdə hər zaman bütün dinlərin nümayəndələrinin birgə iştirakının şahidi olmuşuq. Bu münasibət siyasət və metodoloji baxımdan ideal yanaşmadır. Ona görə də Azərbaycanda dini, milli tolerantlıq ciddi təməllərə söykənərək inkişaf edir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa çıxışında maraqlı məqamlara toxunaraq demişdir: "Müasir dövrün qlobal çağırışları həm mənəvi dəyərlərin qorunmasını, həm də elmi düşüncə ilə dünya düzəninin qurulmasını tələb edir. Bu çağırışlar fonunda dinin cəmiyyətdəki rolu artmaqda olsa da, dinə münasibət yalnız inanc səviyyəsində deyil, eyni zamanda ictimai və hüquqi müstəvidə də qiymətləndirilməlidir". Deputat vurğuladı ki, dini təhsilin əsas məqsədi, sadəcə, dini bilik vermək deyil, eyni zamanda müasir dövrə uyğun gəlməyən, radikal və cəmiyyətdə parçalanma yaradan dini baxışların qarşısını almaq olmalıdır. Bu həm vətəndaşların maarifləndirilməsi, həm də cəmiyyətin təhlükəsizliyi baxımından vacibdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev də çıxış edərək tədbirin faydalı müzakirələrin aparılması baxımından əhəmiyyətini qeyd etdilər.

Simpoziumun təşkilində məqsəd Azərbaycanda və dünyada din təhsili sahəsində mövcud vəziyyətin müzakirəsi, qarşıya çıxan problemlərin təhlili və onların həlli məqsədilə irəli sürülən təkliflərin təmin edilməsi, bu istiqamətdə fəaliyyət göstərən alim və mütəxəssislər arasında tədqiqat işləri, məlumat və təcrübə mübadiləsi üçün platforma yaradılmasıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Dövlət komitəsində Serbiyanın ailə rifahı və demoqrafiya naziri ilə görüş olub

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Serbiyanın ailə rifahı və demoqrafiya naziri Yelena Zariç Kovaçeviç ilə görüş keçirib.**



Dövlət komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Azərbaycan və Serbiya arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. O bildirib ki, iki ölkə arasında əməkdaşlıq müxtəlif sahələrdə, o cümlədən ailə, qadın və uşaq məsələləri istiqamətində qarşılıqlı maraqlara əsaslanır.

Bahar Muradova ölkəmizdə həyata keçirilən ailə siyasəti, qadınların sosial və iqtisadi baxımdan gücləndirilməsi, uşaq hüquqlarının müdafiəsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. O, həmçinin qanunvericilik sahəsində Azərbaycanda son illər aparılan islahatlardan danışıb. Vurğulanıb ki, erkən evliliklərin qarşısının alınması və yaxın qohumlar arasında nikahların məhdudlaşdırılması ilə bağlı edilən dəyişikliklər beynəlxalq müstəvidə də maraqla qarşılanıb: "Bu dəyişikliklər uzun illərdir mövcud olan problemlərin həlli üçün real imkanlar yaradır. Mövcud qanunvericilik çərçivəsi ailə siyasətinin həyata keçirilməsində və proseslərin idarə olunmasında mühüm rol oynayır", - deyə o əlavə edib.

Dövlət komitəsinin sədri Serbiya dövlətinin ailə institutuna göstərdiyi dəstək tədbirləri ilə tanış olduğunu bildirib və bu sahədə Serbiyanın təcrübəsini yüksək qiymətləndirib. O qeyd edib ki, Azərbaycanın bu təcrübəni öyrənmək və tətbiq etmək niyyəti var.

Serbiyanın ailə rifahı və demoqrafiya naziri Azərbaycanın qeyd edilən sahələrdə əldə olunan nailiyyətlərin və təcrübənin ölkəsi üçün də marağını diqqətə çatdıraraq, gələcəkdə birgə layihələrin və ekspert mübadiləsinin həyata keçirilməsinin vacibliyini bildirib.

Nazir qeyd edib ki, ailələrin iqtisadi gücləndirilməsi, uşaqların zorakılıqdan müdafiəsi, sosial siyasət sahəsində layihələrin həyata keçirilməsi, eləcə də institusional mexanizmlərin təkmilləşdirilməsi və qanunvericilik sahəsində aparılan islahatlar Serbiya hökumətinin prioritet istiqamətlərindəndir. O, eyni zamanda beynəlxalq təşkilatlarla birgə həyata keçirilən proqramlar haqqında məlumat verərək, bu təşəbbüslərin ailələrin sosial rifahının artırılmasına, qadınların və uşaqların müdafiəsinin gücləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Görüş tərəflərin gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi və qarşılıqlı səfərlərin təşkili istiqamətində müzakirələrlə davam edib.

# MMU və Gürcüstanın Milli Müdafiə Kolleci STANAG standartları üzrə əməkdaşlığı müzakirə ediblər

**Bakıda Milli Müdafiə Universitetinin (MMU) və Gürcüstanın Milli Müdafiə Kollecinin STANAG komissiyaları arasında işçi görüşü keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, MMU-nun Hərbi İdarəetmə İnstitutunda keçirilən görüşdə qonaqlara Xarici dil mərkəzinin tarixi və fəaliyyət istiqaməti barədə brifinq təqdim olunub.

Nümayəndə heyətinin rəhbəri mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

İşçi görüşdə ingilis dilindən STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsi, test materiallarının moderasiya edilməsi, qarşılıqlı istifadəsi və sınaqdan keçirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, NATO-nun standartlaşdırma sənədi olan STANAG üzv dövlətlərin qarşılıqlı fəaliyyət tələblərinə cavab vermək üçün standartın tam və ya qismən, şərti və qeyd-şərtsiz həyata keçirilməsinə dair razılığını müəyyənləşdirir.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan-Macarıstan əməkdaşlığı iqtisadi inkişafa töhfə verir

**Dünyada elə dövlətlər, xalqlar var ki, onlar təkcə iki ölkə arasındakı münasibətləri möhkəmləndirməklə kifayətlənmir, eyni zamanda regionlar, qitələr arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi sahəsində vacib qərarlar qəbul edir, mühüm addımlar atır, Şərq-Qərb inteqrasiya prosesində əhəmiyyətli rol oynayırlar. Belə ölkələrin timsalında heç bir tərəddüd etmədən bu sahədə sanballı çəkiyə malik olan qardaş Macarıstanın və Azərbaycanın adlarını çəkmək olar. Bu ölkə həm də Azərbaycanın Avropa siyasətində önəmli rol oynayır. Hər iki ölkə arasında əlaqələrin dərin kökləri var. Onları bir-birilə tarixi, mənəvi, etnik, mədəni və iqtisadi tellər sıx birləşdirir.**



Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra iki ölkə arasındakı münasibətlər keyfiyyətcə yüksək mərhələyə qədəm qoymuş, rəsmi Budapeşt həmişə Azərbaycanın suveren hüquqlarına, ərazi bütövlüyünə böyük sayğı ilə yanaşmış, ona qarşı hərbi təcavüzü qətiyyətlə pisləmişdir. Təsadüfi deyil ki, Azərbaycanın yaxın dostu, Macarıstanın Baş naziri Viktor Orban Avropa Sülh Fondundan Ermənistana milyonlarla dollar vəsaitin ayrılması layihəsini bloklamışdır. Bununla yanaşı, hər iki dövlət başçıları arasında yaranmış şəxsi dostluq əlaqələri də onların beynəlxalq kürsülərdən eyni mövqedən çıxış etmələri üçün münbit, etibarlı zəmin yaratmışdır.

Hazırda hər iki ölkənin sıx qarşılıqlı faydaya əsaslanan əməkdaşlığı Avropa-Asiya inteqrasiya prosesinə mühüm töhfə verir. Bunu həm rəsmi Bakının, həm də Budapeştin regional və beynəlxalq iqtisadi, enerji, logistika layihələrində fəal iştirakı göstərir. Bu əməkdaşlıq Avropanın enerji təhlükəsizliyini daha etibarlı və davamlı edir.

Hər iki ölkəni bir sıra xüsusiyyətlər birləşdirir. Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri V.Orbanla görüşü zamanı hər iki ölkənin ərazilərinin sahəsinə, əhalinin sayına görə bir-birinə yaxın olduğunu vurğulamışdı. Həm də bu xalqlar özlərinin qonaqpərvərlikləri ilə seçilirlər.

Avropanın ayrılmaz tərkib hissəsi olan Macarıstanın iqtisadiyyatı hazırda, əsasən, maşınqayırma üzərində qurulub. Bu ölkədə əmək xərcləri nisbətən aşağıdır. Buna görə də bir çox qlobal korporasiyalar Macarıstanda Raba, Suzuki, Mercedes və digər markaların zavodları da daxil olmaqla, böyük avtomobil zavodları tikməyə can atırlar.

Bu ilin fevralında Baş nazir Viktor Orban ölkənin vəziyyəti haqqında xalqa illik müraciətində iqtisadi artımın bərpasını və inflyasiyanın qarşısını almağı hökumətin ən mühüm vəzifəsi hesab etdiyini təsdiqləyib. Gözləntilərə görə, 2025-ci ilin sonuna kimi Macarıstanın ümum daxili məhsulu 224,68 milyard dollara çatacaq.

İki ölkə arasındakı siyasi münasibətlərə gəldikdə isə Macarıstan Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr isə 1992-ci ilin aprel ayının 27-də qurulmuşdur. Azərbaycanın Macarıstandakı səfirliyi 2004-cü ilin sentyabr ayında açılıb. 2009-cu il yanvarın 12-də isə Macarıstanın Azərbaycanda səfirliyi yaradılıb.

Xatırladaq ki, Macarıstanın Baş naziri Viktor Orban 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında Azərbaycanda işgüzar səfərlərdə olub. Prezident İlham Əliyevin bu il mayın 20-də Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə dost ölkəyə növbəti işgüzar səfəri qarşılıqlı münasibətləri yeni mərhələyə yüksəldib. Ötən dövr ərzində birbaşa və beynəlxalq forumlar çərçivəsində iki dövlət başçısının görüşləri bir daha sübut etdi ki, möhkəm etimada və etibara əsaslanan siyasi münasibətlər digər sahələrdə də qarşılıqlı faydalı əməkdaşlığın inkişafına möhkəm özül yaradır.

2024-cü ilin yayında Bakıda Azərbaycan-Macarıstan Strateji Dialoqunun ilk iclası keçirildi. Baş nazir Viktor Orbanın Türk Dövlətləri Təşkilatı (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün ötən il Şuşaya səfəri həmin dövrdə Macarıstanın Avropa İttifaqı (Aİ) Şurasına sədrlik etməsi, eləcə də Aİ-yə üzv ölkələrin dövlət və hökumət başçıları səviyyəsində Şuşaya ilk səfəri baxımından mühüm əhəmiyyət kəsb edir.

Hər iki ölkə TDT çərçivəsində də sıx əməkdaşlıq qurub. Cari il mayın 21-də Budapeştdə TDT-nin qeyri-rəsmi Zirvə toplantısına Macarıstan yüksək səviyyədə evsahibliyi edib. Bu il oktyabrın 7-də Qəbələ şəhərində keçirilmiş TDT-nin 12-ci Zirvə görüşündə ciddi müzakirələr aparılıb və bir sıra mühüm qərarlar qəbul olunub.

Azərbaycan-Macarıstan əlaqələri həmçinin çoxtərəfli platformada, xüsusilə BMT, ATƏT, NATO, Avropa İttifaqı, "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində uğurla inkişaf etdirilir.

Hazırda iki dövlət arasında "Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə" fəaliyyət göstərir. Bu sənəd enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi sahəsində ortaq maraqlar güdür və "Cənub qaz dəhlizi" layihəsinin əhəmiyyətini ön plana çəkir. Hər iki ölkə, xüsusilə enerji, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrində qarşılıqlı faydalı əməkdaşlığı getdikcə gücləndirirlər.

İki ölkə parlamentləri arasında əlaqələr məzmunlu və məhsuldar xarakter daşıyır. Hökumət və dövlət orqanları arasında da əlaqələr normal məcrada inkişaf edir. Tez-tez dövlət qurumlarının nümayəndə heyətlərinin qarşılıqlı işgüzar səfərləri də əməkdaşlığa təkan verir. Bu ilin sentyabrında Macarıstan Respublikasının mədəniyyət və innovasiyalar naziri Balazs Hanko Bakıda işgüzar səfərdə oldu. O, azərbaycanlı həmkarı ilə apardığı müzakirələr zamanı kitabxana, mədəni irsin qorunması və təbliği, o cümlədən kino sahəsində əməkdaşlığa dair fikir mübadiləsi apardı.

Hər iki tərəf bir-birinə iqtisadi sahədə, xüsusilə enerji təhlükəsizliyi sahəsində etibarlı və strateji tərəfdaş kimi baxır. Hazırda Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrindən Avropaya enerji ixracını artırmaqla bu qitənin enerji təminatında önəmli rol oynamağa davam edir. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidirlər. Bunlar "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarıdır. Qeyd edək ki, "Şahdəniz" yatağı Macarıstanın ən etibarlı investisiya obyektidir. Həmçinin MOL şirkətlər qrupu "Azəri-Çıraq-Günəşli" yatağında 9,57 faiz, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsində isə 8,9 faiz paya sahibdir.

Macar investorları Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Onlar təkcə mədənçıxarmada deyil, eyni zamanda istehsalat, logistika sahələrində, eləcə də, Azərbaycan hökumətinin dəstəyi ilə həyata keçirilən bərpa layihələrində iştirak edirlər. Ötən il Macarıstandan Azərbaycan iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiyalar 1,018 milyard dollar təşkil edib. Macarıstan şirkətləri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərində iştirak etməkdə maraqlıdır. "KESZ" şirkətlər qrupu Cəbrayıl rayonunun Soltanlı kəndinin yenidən qurulmasını həyata keçirir.

İki ölkə arasında nəqliyyat əlaqələri sahəsində "Wizz Air" aviaşirkəti tərəfindən Bakı-Budapeşt aviareyslərinin həyata keçirilməsini qeyd etmək olar. İki ölkə arasında birbaşa hava əlaqəsinin açılması ilə birgə layihələrin fəallaşması və təmasların genişlənməsi müşahidə olunur. Bu, turizm sahəsində əlaqələrin inkişafına da müsbət təsir göstərir.

Azərbaycanın qaz ehtiyatları kifayət qədər genişdir. Yaxın zamanlarda yeni qaz yataqları da istismara veriləcək. Azərbaycan bu gün 14 ölkəyə təbii qaz ixrac edir. Onlardan 8-i Avropa İttifaqının üzvü olmaqla, 10-u isə Avropa ölkəsidir. 2024-cü il ərzində iki ölkə arasındakı ticarət dövriyyəsində 29 faiz artım olub.

Mədəniyyət sahəsində əlaqələr də durmadan inkişaf edir. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Macarıstan Mədəniyyət və İnnovasiyalar Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq proqramı" imzalanıb.

Humanitar sahədə "Stipendium Hungaricum" təqaüd proqramı vasitəsilə azərbaycanlı gənclərin Macarıstanda təhsil alması, həmçinin Azərbaycan Dillər Universitetində Macar dili və Mədəniyyəti Mərkəzinin fəaliyyəti təqdirəlayiqdir. 2024-cü ildə Macarıstanın aparıcı ali məktəblərindən biri olan Eötvöş Lorand Universitetində (ELTE) Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb. Belə ki, Macarıstan hökumətinin maliyyə dəstəyi ilə "Stipendium Hungaricum" təqaüd proqramı çərçivəsində hər il azərbaycanlı tələbələrə 200 təqaüd ayrılır. Hazırda Macarıstanda 700-ə qədər azərbaycanlı tələbə 10-dan çox ali məktəbdə tələbələr təhsil almaqdadır.

Qəti əminliklə deyə bilərik ki, hər iki tərəfdaş ölkə həm Cənubi Qafqazda, həm də Mərkəzi və Şərqi Avropada yaranmış hərbi-siyasi problemlərin sülh yolu ilə həllində, dinc vasitələrlə tənzimlənməsində israrlıdırlar. Onlar birlikdə regional müharibələrin və qlobal münaqişələrin əleyhinə çıxır, bu halları qətiyyətlə pisləyirlər. Bu yaxınlarda Macarıstanın Baş naziri Viktor Orbanın Rusiya-Ukrayna müharibəsinin dərhal dayandırılması çağırışı ilə dünya birliyinə səslənməsi nəinki Avropada, bütövlükdə dünyada sülh işi üçün yaranmış təhlükədən irəli gələn ciddi narahatlığın təzahürüdür. Həmişə bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşan Macarıstan və Azərbaycan bu cəhətdən digər ölkələrə də münasibətdə eyni mövqeyi sərgiləyirlər.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

## Orta dəhliz və Cənubi Qafqazda əməkdaşlığın yeni mərhələsi

**Son zamanlar müxtəlif dairələrdə Zəngəzur dəhlizinin (TRIPP) geosiyasi əhəmiyyətinin yeni səviyyəyə yüksəldiyi haqqında fikirlər səsləndirilir. Bu məsələ həm də Orta dəhliz kontekstində nəzərdən keçirilir. Siyasilər və ekspertlər belə bir gedişatda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda keçirilən görüşdə əldə olunmuş razılaşmanın xüsusi rol oynadığını vurğulayırlar. Bununla aydın olur ki, söhbət, ilk növbədə, Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın yeni səviyyədə qarşılıqlı əlaqəsinin formalaşmasından gedir. Biz bu prosesin Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində xüsusi dinamika alması fonunda təhlilinə ehtiyac duyuruq.**

### Regional bağlantılar və Zəngəzur

Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında irəli sürdüyü çox əhəmiyyətli tezislərdən biri Orta dəhliz kontekstində Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı olmuşdur. Azərbaycan lideri ifadə etmişdir: "Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP)".

İlham Əliyev burada regionlararası kommunikasiyanın sabit işləməsini davamlı sülhün təməl şərtlərindən biri kimi gördüyünü vurğulayır. Bu baxımdan Zəngəzur dəhlizi Orta dəhlizin etibarlı və davamlı fəaliyyəti üçün əsas kommunikasiya faktoru kimi qəbul edilməlidir. Vaşinqton razılaşması fonunda bu məsələ son dərəcə aktual görünür. TRIPP-in tarixi anlamına məhz bu kontekstdə yanaşmaq gərəkdir.

Prezident İlham Əliyev böyük ustalıqla Orta dəhliz və Zəngəzur dəhlizi (TRIPP) məsələlərini ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ilə əlaqələndirmişdir. Dövlət başçısı bu aspektdə ifadə etmişdir: "Vaşinqton Sammiti, həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır".

Bu fikirlər ekspertlərin gündəminə bir sıra mövzular gətirmişdir. Onların arasında Cənubi Qafqazda təhlükəsizlik, əməkdaşlıq və kommunikasiyaların açılması xüsusi yer tutur. Eyni zamanda bu gedişat bütövlükdə regionda marağı olan böyük geosiyasi güclərin mübarizəsini ön plana çıxarmaqdadır. Bu iki istiqamət rakursundan ekspertlərin mövcud vəziyyəti təhlil edərkən diqqət yetirdikləri məqamlara nəzər salaq.

### Ekspertlərin təhlilləri

Azərbaycan mətbuatında Cənubi Qafqazda sensasion sayıla biləcək proseslərin getdiyi vurğulanır. O cümlədən Azərbaycan-ABŞ-Ermənistan və Azərbaycan-Türkiyə-Ermənistan "üçbucaqları"nda müşahidə edilən dinamika diqqət çəkir. Bunun Rusiyaya təsir etdiyi və Moskvanı hərəkətə keçirdiyi qeyd olunur. Maraqlıdır ki, ekspertlər Kremlin həssaslığını neqativ fonda qiymətləndirirlər. Yəni hesab edirlər ki, Rusiya bu proseslərə əngəl törədə bilər. Lakin İrəvanın bu təhdidlərə uymayacağı haqqında rəylər də mövcuddur. Onun təminatçısı kimi, bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında paraflanmış sülh razılaşması göstərilir.

Burada diqqətçəkən məqamlardan biri Azərbaycan Prezidenti İlham Əliyevin TRIPP-ə ciddi əhəmiyyət verməsidir. Deməli, Zəngəzur məsələsində Bakı ilə İrəvanın mövqelərinin yaxınlaşdığı hiss edilir.

Bir sıra ekspertlər hesab edirlər ki, N.Paşinyan hazırda "real siyasət"ə stavka edir və buna görə də mövqeyi davamlı ola bilər. Bu zaman "real siyasət" dedikdə, Azərbaycanın əldə etdiyi nailiyyətlər sayəsində regionda yaranmış yeni geosiyasi ab-hava nəzərdə tutulur.

Bir başqa yanaşmada məsələnin, əsasən, Orta dəhliz konteksti ilə bağlı olması əsas arqument kimi göstərilir. Bu mövqedə Prezident İlham Əliyevin "Biz Orta dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görürük" fikrinə əsaslanır.

Bütün bunların fonunda ekspertlərin Orta dəhlizi "qlobal orbitə çıxan faktor" kimi qiymətləndirməsi təsadüfi təsir bağışlamır. Məsələnin bu tərəfinin Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu ilə bağlı əsaslandırılması maraq doğurur, çünki həmin marşrut Çinin "Bir kəmər, bir yol" təşəbbüsü müstəvisində perspektivli hesab edilir.

Qeyd etmək lazımdır ki, bir qədər fərqli aspektlərdə, lakin vurğulanan ekspert mövqeləri ilə uyğunluq təşkil edən digər yanaşmalar da vardır.

### Orta dəhliz yeni geosiyasi statusda

Prezident İlham Əliyevin yuxarıda vurğuladığımız dərinməzmunlu fikirləri fonunda ekspertlərin mövqeləri onu göstərir ki, Azərbaycanın fəaliyyəti sayəsində Orta dəhliz daha aktual geosiyasi statusa yüksəlməkdədir. Burada əsas yeri Vaşinqton razılaşması tutur. Bu razılaşma Azərbaycanın təklif etdiyi və uzun müddətdir ki, üzərində dayandığı sülh şərtləri əsasında reallaşmışdır. Deməli, indiki mərhələdə Orta dəhlizin daha geniş anlamda aktual faktora çevrilməsi Azərbaycan Prezidentinin şəxsi təşəbbüslərinə görə baş vermişdir. Bu məqam müasir mərhələdə Çindən tutmuş ABŞ-yə qədər geniş geosiyasi məkanda başlıca siyasi-diplomatik faktorlardan biri kimi qəbul edilməlidir.

Ermənistanın Orta dəhliz və regional sülh gündəliyi kontekstində nümayiş etdirdiyi mövqe də məhz bu gerçəkliyin bir fraqmentidir. Rəsmi İrəvan anlayır ki, Azərbaycanın fəaliyyəti olmadan Cənubi Qafqazda heç bir layihə reallaşa bilməz. İndi onu TRIPP-lə əlaqələndirmək müəyyən mənada Ermənistan rəhbərliyinə öz imicini qorumağa yardım edirsə, buna da elə etiraz yoxdur. Ancaq konkret Zəngəzur dəhlizi (TRIPP) aspektində müəyyən reallıqlar mövcuddur ki, Ermənistanın heç bir manevri onları arxa plana ata bilməz. Həmin reallıqlar dəfələrlə Prezident İlham Əliyevin çıxışlarında dəqiq ifadə edilmişdir. Burada əsas məqamlardan biri Azərbaycanın Zəngəzur dəhlizindən (TRIPP) maneəsiz və şərtsiz istifadə etməsi, türk coğrafiyasının quruda bütövlüyünün təmin olunması və region dövlətlərinin hər birinin qarşılıqlı faydalı əməkdaşlıq imkanına malik olması ilə bağlıdır.

Bunlar da öz növbəsində Zəngəzur dəhlizinin (TRIPP) regional sabitlik, təhlükəsizlik və əməkdaşlıq kontekstində geosiyasi funksiyasının aktuallığını aydın şəkildə nümayiş etdirir.

### Tarixi vaciblikdən geosiyasi funksionallığa

Azərbaycanın xarici siyasətinin nailiyyətləri sırasında Zəngəzur dəhlizinin (TRIPP) yeri və rolu həmişə əhəmiyyətini saxlayacaqdır. Azərbaycan Prezidenti bu istiqamətdə illərdir aydın siyasət aparır ki, dünya ictimaiyyəti həmin siyasətin yaratdığı reallığı qəbul etməyə məcbur qalmışdır. Burada başlıca dəyər Azərbaycan rəhbərinin hər bir dövlətin milli, regional və regionlararası miqyaslarda maraqlarının təmininə yardım edən təşəbbüslər irəli sürməsi ilə bağlıdır. Həmin təşəbbüslər tarixi ədalətlə yanaşı, müasir beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Buna görə də İlham Əliyevin mövqeyi qəbul edilməli idi.

Digər tərəfdən, hazırda Orta dəhliz kontekstində Zəngəzur dəhlizinin (TRIPP) geosiyasi funksionallığının dünya ictimaiyyəti tərəfindən dərk olunmağa başlanması Vaşinqtonda əldə edilən razılıqla sıx əlaqəlidir. Prezident İlham Əliyev, faktiki olaraq, ABŞ və Çin kimi iki fövqəlgücü bir araya gətirə biləcək siyasi-diplomatik fəallığın ümumi cizgilərini təqdim etmişdir.

Əlbəttə, bu, artıq dünya miqyasında ciddi uğurdur və Azərbaycanı müstəqil dövlət kimi yeni geosiyasi statusa yüksəldir. Bununla Prezident İlham Əliyev səmərəli və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan birgə platformalar vasitəsilə dünya miqyasında sülhə, əməkdaşlığa, təhlükəsizliyə və dialoqa yeni töhfələr vermiş olur!

*Kamal ADIGÖZƏLOV,*
*siyasi icmalçı*



# İqtisadiyyat və sosial həyat

## Azərbaycanla Qazaxıstanı bir-birinə polad kəmər bağlayır

### Ölkələrimiz üçün BTC-nin əhəmiyyəti getdikcə artır

**Qazaxıstan neftinin Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə ixracı getdikcə daha böyük əhəmiyyət qazanır. BTC-nin salnaməsini vərəqləsək, aydın görərik ki, bu unikal kəmərin çəkilməsi ideyasının yarandığı vaxtdan Qazaxıstan bizimlə həmrəy olub və bununla da layihənin gerçəkləşməsinə dəstək verib.**



Hələ 1999-cu ilin noyabrında ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" sazişi sözügedən üç ölkənin prezidenti ilə yanaşı, ABŞ-nin və Qazaxıstanın dövlət başçıları da imzalamışdılar.

2005-ci il mayın 25-də Səngəçal terminalında kəmərə ilk neft vuruldu. Həmin əlamətdar gündə də Qazaxıstan öz dövlət başçısının və digər nümayəndələrinin timsalında bizimlə idi.

BTC regionun neft ixracı arteriyası olaraq dost və qardaş Qazaxıstan üçün də əhəmiyyətli bir infrastrukturdur. Məsələn, "KazMunayGas" və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında 2022-ci ilin noyabrından etibarən həyata keçirilən birgə ixrac çərçivəsində 2023-cü ildə 1 milyon ton, 2024-cü ildə 1,4 milyon ton, 2025-ci ilin ilk səkkiz ayında isə təxminən 0,9 milyon ton neft göndərilib. Planlara əsasən, 2027-ci ilə qədər illik ixrac həcmi 7 milyon tona çatdırılacaq. Onu da qeyd edək ki, həmçinin Bakı-Supsa marşrutu alternativ istiqamət kimi nəzərdən keçirilir. Bu göstəricilər Qazaxıstan üçün Azərbaycan üzərindən keçən enerji və logistika marşrutlarının strateji rolunun artdığını, iki ölkə arasında iqtisadi əməkdaşlığın artıq neft, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində dərin inteqrasiya mərhələsinə daxil olduğunu təsdiqləyir.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində "Kazinform"a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika sahələrində əməkdaşlığın sürətli inkişafından, Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən danışmaqla yanaşı, enerji sektorundakı sıx əlaqələrdən, o cümlədən BTC-yə aid perspektivlərdən də bəhs etmişdir. Neft-qaz sektorunda SOCAR və "KazMunayGaz" Milli Şirkəti arasında Aktau-Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranziti ilə bağlı baş saziş imzalandığını xatırlatmışdır. Həmçinin bildirmişdir ki, 2024-cü ildə tranzit həcmlərinin mərhələli şəkildə artırılması və tariflərin aşağı salınması haqqında saziş imzalanıb.

Prezident İlham Əliyevin Qazaxıstana bu günlərdə baş tutan dövlət səfəri zamanı da BTC mövzusu ön sıralarda olmuşdur. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatında ölkələrimizin böyük potensiala malik olduğu energetika sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi diqqət yetirildiyini qeyd edərək demişdir: "Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə nəqli üzrə birgə işimizi məmnunluqla qeyd edirəm. Keçən il bu strateji xammalın Azərbaycan ərazisindən tranziti təxminən 1,5 milyon ton təşkil edib. Yaxın vaxtlarda bu həcmi artırmaq, həm də xeyli artırmaq nəzərdə tutulur".

Qazaxıstan Prezidenti milli enerji sistemlərinin inkişafına impuls olacaq daha bir layihənin dərin su altında elektrik kabelinin çəkilməsinin olduğunu xatırlatmışdır: "Bu, "yaşıl enerji" ixracında mövqelərimizi xeyli möhkəmləndirəcək. Azərbaycan ərazisindən xarici bazarlara Qazaxıstanın uran məhsullarının tədarükü çərçivəsində böyük iş aparılır. Bununla bağlı Azərbaycanın hörmətli Prezidentinə bütün əsas təşəbbüs və layihələri dəstəklədiyinə görə minnətdarlığımı bildirmək istəyirəm".

"Yaşıl energetika"nın inkişafının ikitərəfli gündəlikdə mühüm yer tutduğu Prezident İlham Əliyevin yuxarıda sözügedən müsahibəsində də qeyd edilmişdir: "2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin birləşdirilməsinə və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər və memorandumlar imzalayıb. Bu təşəbbüslər ölkələrin davamlı inkişafa və ekoloji cəhətdən təmiz texnologiyalara keçidə birgə sadiqliyini əks etdirir".

Söhbət keçən il COP29 çərçivəsində Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçılarının imzaladıqları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"dən gedir. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək. Buradan isə "yaşıl enerji"nin Avropaya uzun sualtı yolları başlanacaq. Başqa sözlə, BTC neft kəmərinin açdığı yollar indi geniş qaz, bərpaolunan enerji dəhlizlərinə qovuşur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Azərkosmos" peyk istehsalına hazırlaşır

### Bu, ölkəmizin kosmik sənayesində yeni mərhələ olacaq

**"Azərkosmos" idarə heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Dunay Bədirxanov Bakıda keçirilən "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbirdə bildirib ki, "Azərkosmos" peyk istehsalına hazırlaşır və bu, kosmik sənayenin inkişafında yeni mərhələ olacaq.**

Azərbaycanda müstəqil kosmik sənayenin əsası 2008-ci ildə qoyulub. "Azərkosmos"un yaradılması ilə ölkəmizdə kosmik fəaliyyətin inkişafına dövlət səviyyəsində sistemli dəstək verilir. Hazırda qurumun xidmətlərindən 50-dən çox ölkədə 200-ə yaxın şirkət yararlanır. Azərbaycan öz orbital mövqeyinə sahib 48 ölkədən biridir və kosmik resurslarından müstəqil şəkildə istifadə edir.

Dunay Bədirxanov qeyd edib ki, yaxın aylarda Kosmik Aparatların İnkişafı Mərkəzinin tikintisinə başlanılacaq və burada Azərbaycan peyklərinin istehsalının həyata keçirilməsi planlaşdırılır: "Artıq bu istiqamətdə ilkin addımlar atılıb. "Tədqiqat və İnkişaf" komandamız son bir il yarım ərzində İsraildə "Azersky-2" layihəsi çərçivəsində peyk istehsalı üzrə təlimlər keçib. Mərkəzin dizayn və layihələndirmə mərhələsi tamamlanıb və yaxın aylarda tikintiyə start veriləcək. Yeni peykimizin daşıyıcı raketi kimi "SpaceX" şirkətini seçmişik. Bununla bağlı "Azərkosmos" tarixində ilk dəfə törəmə müəssisə - "Spacecraft Development and Production" MMC yaradılıb".

"Azərkosmos"un sədr müavini Fuad Aslanov isə vurğulayıb ki, bu tədbir təkcə son 10 ilin uğurlarını paylaşmaq deyil, həm də gələcək əməkdaşlıqlar və strateji baxışın formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Sədr müavini həmçinin bildirib ki, 2024-cü ildə qurum 10 milyon dollarlıq biznes portfeli formalaşdırıb: "Bu, xidmətlərimizə olan böyük tələbatın və keyfiyyət göstəricisinin sübutudur. Son illərdə "Azərkosmos" kənd təsərrüfatı, ekologiya, turizm, mədənçilik, neft-qaz və enerji sahələrində bir çox layihələr reallaşdırıb. 2022-ci ildə yaradılmış Coğrafi İnformasiya Sistemləri Mərkəzi vasitəsilə 100-dən çox kommersiya layihəsi həyata keçirilib. Hazırda qurum "FarmUp", "Platerra", "WebGis" və iqlim hesabatı kimi rəqəmsal platformaları istifadəyə təqdim etməyə hazırlaşır".

Kosmik peyklər bütün sahələrdə baş verən proseslərin öyrənilməsində önəmli rol oynayır. Bu imkandan istifadə iqtisadiyyata böyük fayda verir. Bu, müxtəlif sahələr üzrə tədbir iştirakçılarının çıxışlarında da təsdiqlənib. Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firudin Tağıyev bildirib ki, peyk müşahidələri kənd təsərrüfatında şəffaf subsidiyalaşma və torpaq resurslarının səmərəli idarə edilməsinə mühüm töhfə verir: "Peyk məlumatları vasitəsilə torpaq və su ehtiyatlarının vəziyyəti, əkin sahələrinin dinamikası və məhsuldarlıq göstəriciləri izlənilir. Bu, həm dövlət siyasətinin, həm də fermer qərarlarının daha düzgün formalaşmasına şərait yaradır". İqtisadiyyat Nazirliyinin Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanov isə deyib ki, kosmik müşahidə və rəqəmsal məlumatlardan istifadə iqtisadiyyatın müxtəlif sahələrinin monitorinqi və idarəetmənin optimallaşdırılmasında əsas vasitəyə çevrilib: "İqtisadiyyat Nazirliyi ilə "Azərkosmos" arasında qurulan əməkdaşlıq nəticəsində 1000-dən çox məlumat bazası yenilənib, 1500-ə yaxın məkan göstəricisi dəqiqləşdirilib". Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Agentliyi idarə heyətinin sədr müavini Şahin Ataşov "Peyk təsvirləri meşə örtüyünün dəyişməsi, su hövzələrinin vəziyyəti və torpaq eroziyası kimi proseslərin izlənilməsində mühüm elmi baza yaradır. Ekoloji siyasətin formalaşdırılmasında kosmik məlumatlara əsaslanmaq bizə dəyişiklikləri vaxtında müəyyənləşdirməyə və onların təsirini azaltmağa imkan verir", - deyə vurğulayıb. Azərbaycan Dövlət Su Agentliyinin şöbə müdiri Yusif Əhədi isə bildirib ki, hazırda su hövzələrində suyun səviyyəsinin avtomatik müəyyən olunması ilə bağlı "Azərkosmos"la birgə layihə hazırlanır. "Elektron su təsərrüfatı ilə bağlı işlər icra olunur. Bu istiqamətdə peyk təsvirlərindən istifadə etmək bizim üçün mühüm əhəmiyyət kəsb edir", - deyə şöbə müdiri qeyd edib.

Məlumdur ki, işğaldan azad olunmuş ərazilərin təbii resurslarından istifadə hazırda qarşıda duran əsas hədəflərdəndir. Çünki həmin bölgələrin zəngin potensialından istifadə edilməsi iqtisadi inkişafımıza güc qatacaq. Tədbirdə qeyd olunub ki, hazırda işğaldan azad edilmiş ərazilərdə kosmik şəkillərin incələnməsi yolu ilə faydalı qazıntıların yayılma areallarının müəyyənləşdirilməsi istiqamətində işlər aparılır.




Sonda Dunay Bədirxanov deyib: "Azərbaycanın kosmik sektorunun əsas məqsədi yalnız texnoloji imkanları genişləndirmək deyil, həm də qlobal iqlim siyasətinə dəstək göstərməkdir. "Azərkosmos"un təqdim etdiyi peyk məlumatları və coğrafi informasiya sistemləri kənd təsərrüfatı, ekoloji monitorinq, su ehtiyatlarının idarə olunması və təbii fəlakətlərin qiymətləndirilməsi kimi sahələrdə mühüm rol oynayır. 1000-dən çox layihə icra etmişik. Onların sırasında Böyük qayıdış dövlət proqramı çərçivəsində 30-a yaxın layihə də yer alır. "Azərkosmos" iqlim dəyişikliklərindən ən çox təsirlənən kiçik ada dövlətlərinə də kosmik məlumatlara əsaslanan həllər və təlimlər təqdim edir. Bu, həm sosial məsuliyyət, həm də texnologiya ixracı baxımından strateji addımdır. Biz sübut etdik ki, Azərbaycan kosmosda yalnız müşahidəçi deyil, həm də yaradıcı qüvvədir. Bizim üçün kosmos sonsuz məsafə deyil, sonsuz imkanlar məkanıdır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Gəncədə kənd təsərrüfatı və qida texnologiyalarının tədqiqi mövzusunda beynəlxalq konfrans keçirilmişdir

**Gəncədəki Heydər Əliyev Mərkəzində Azərbaycan Dövlət Aqrar və Türkiyənin Çukurova universitetlərinin birgə təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilmişdir.**

Kənd təsərrüfatı və qida texnologiyaları sahəsində elmi tədqiqatların müzakirəsi, innovativ yanaşmaların təşviqi və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə həsr olunan konfransı ADAU-nun rektoru Zəfər Qurbanov açaraq təmsil etdiyi təhsil ocağının beynəlxalq uğurlarından, Ege Universiteti ilə ikili diplom proqramının əhəmiyyətindən danışmışdır.





Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Elm və Təhsil Nazirliyinin əməkdaşı Nicat Məmmədəli, Milli Məclisin deputatı Musa Quliyev və FAO-nun Azərbaycandakı rəhbəri Muhammməd Nasar Hayat çıxış edərək konfransın elmi əməkdaşlıq və innovasiyaların təşviqi baxımından əhəmiyyətini qeyd etmişlər.

Ege Universitetinin rektoru Nəcdət Budakın çıxışından sonra Çukurova və Macarıstan universitetlərinin rektorlarının videomüraciətləri, eləcə də müzakirə olunan mövzu ətrafında elmi məruzələr dinlənilmiş, panel müzakirələr və beynəlxalq əməkdaşlıq görüşləri keçirilmişdir.

Üç gün davam edən konfransın ikinci günü bölmə iclasları keçirilmiş, üçüncü gün isə iştirakçılar Şuşa və Xankəndiyə səfər etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin 4 yaşı tamam oldu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışından 4 il ötür.**

2021-ci il oktyabrın 22-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan Mərkəz Cənubi Qafqazda ilk və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb. Müəssisədə əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, valideyn himayəsindən məhrum uşaqlar və digər həssas əhali qruplarına aid şəxslərin istedad və bacarıqlarının inkişafına, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır.

Bu məqsədlə mərkəzdə 14 istiqamət (rəqs, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, xalçaçılıq, bədii tikmə, bədii oyma, kulinariya, səhnə ifaçılığı və s.) üzrə yaradıcılıq təlimləri təşkil olunur. İnklüziv cəmiyyətin inkişafında mühüm rola malik olan müəssisənin son illər İsmayıllı və Bərdə rayonlarında filialları da yaradılıb.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və filiallarında ötən dövrdə həssas qruplara aid 820-dən çox benefisiara xidmətlər göstərilib.

Mərkəzin təlimçi və benefisiarlarının iştirakı ilə 150-dən çox inklüziv tədbir təşkil olunub. Qurum beynəlxalq miqyaslı tədbirlərdə də fəal təmsil olunur. Məsələn, Cənubi Koreyada 4-cü Qış Olimpiya Oyunları çərçivəsində təşkil olunan ekspozisiyada və 2025-ci il Beynəlxalq Uşaq İncəsənət Mübadiləsi Sərgisində, Cenevrədəki Millətlər Sarayında 2 Aprel - Dünya Autizm Məlumatlandırma Gününə həsr olunmuş tədbirdə, Yaponiyada keçirilən "Osaka, Kansai Ekspo 2025" sərgisində mərkəzin benefisiarları da yaradıcılıq nümunələri ilə çıxış ediblər.



Hazırda mərkəz və filiallarında 226 benefisiar müxtəlif istiqamətlər üzrə təlimlərdə iştirak edir. Benefisiarlar sosial-psixoloji dəstək xidmətləri ilə də təmin edilirlər.







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Vətən müharibəsi şəhidi Elkiyar Məmmədovun ailəsi ziyarət olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyəti sədrinin müavini Pərviz Səfərov Vətən müharibəsi şəhidi Elkiyar Məmmədovun Sabunçu rayonunda yaşayan ailəsini ziyarət edib, onun övladları Abdulla, Damla və Duyğu ilə görüşüb.**

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, şəhidin ailəsi sosial dəstək tədbirləri ilə əhatə olunub, nazirlik tərəfindən üçotaqlı tam təmirli mənzillə təmin olunub, ailəyə sosial ödənişlər təyin edilib.



Görüş zamanı şəhidin müharibə zamanı göstərdiyi qəhrəmanlıqlardan bəhs olunub. Elkiyar Məmmədovun əziz xatirəsinin qəlbimizdə əbədi yaşayacağı vurğulanıb. Ailənin bundan sonra da dövlət qayğısı ilə əhatə olunacağı qeyd olunub.

Qeyd edək ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elkiyar Məmmədov Xocavənd uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

## Silaha sarılan həkim - Həsən Məmmədovun Vətən müharibəsi hekayəsi

**44 günlük Vətən müharibəsində xalqımızın igid övladları ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda haqq savaşında qəhrəmanlıqla iştirak etdilər. Bəziləri döyüşlərdə, bəziləri isə arxa cəbhədə əllərindən gələni əsirgəmədilər. Xüsusən də həkimlərimiz...**

AZƏRTAC xəbər verir ki, Qazax Rayon Mərkəzi Xəstəxanasının həkimi Həsən Məmmədov Tibb Universitetinin Hərbi tibb fakültəsinin 5-ci kursunda oxuyanda Vətən müharibəsi başlayıb və tələbə yoldaşları ilə birlikdə könüllü şəkildə döyüşlərə qatılıb. Deyir ki, hər kəsin ürəyi həmin günlərdə Vətən sevgisi, torpaqlarımızın azad edilməsi arzusu ilə döyünürdü. Həsən də təhsilini yarımçıq saxlayıb, silaha sarılıb: "Vətən müharibəsi başlayanda avtobuslarla hərbi hissəyə yolla düşdük. Səhər idi, Günəş yeni çıxmışdı, yol kənarında qoca ər-arvad dayanmışdı. Dizləri üstə çöküb bizim üçün dua edirdilər. O mənzərəni heç zaman unutmaram. İnsanlar yolumuzu kəsib, bizə dəstək olurdular. Onsuz da dövlətimiz bizi hər cür təminatla dəstəkləyirdi. Amma insanlar da su, şirniyyat, əllərinə nə keçirdisə, bizim üçün verirdilər. Deyirdik, maşında yer yoxdur. Yenə də gətirirdilər. Bu, xalqın birliyi idi, öz əsgərinin arxasında dağ kimi dayandığını göstərirdi, bu, bizə əlavə ruh yüksəkliyi verirdi".

Həsən deyir ki, ilk döyüşü Talış kəndi uğrunda, Mübariz



İbrahimovun şəhidlik zirvəsinə yüksəldiyi yerlərdə olub. "Mübariz postundan yuxarı qalxdıq. Ora erməni hərbçilər ilə üzbəüz idi. Döyüşdük, şəhidlərimiz olsa da, tapşırığı yerinə yetirə bildik. Yeri gəldi yaralılarımıza yardım göstərdik, şəhidlərimizin nəşini kənarlaşdırdıq", - deyə xəstəxananın Təcili yardım şöbəsinin həkimi, Vətən müharibəsi iştirakçısı o günləri xatırlayır.

Həmsöhbətimiz Talış, Suqovuşan və digər yüksəkliklər istiqamətində gedən döyüşlərdə, daha sonra 2022-ci il sentyabr təxribatının qarşısının alınmasında və antiterror tədbirində də iştirak edib.

O, Vətən müharibəsindən sonra yarımçıq qalan təhsilini bitirib və həkim kimi fəaliyyətini davam etdirir. İndi təcili yardıma ehtiyac olanlara şəfa göstərmək üçün can atır. "Həkim, xüsusən hərbi həkim müqəddəs peşədir. Düşmən həmişə birinci həkimləri vurmağa çalışırdı. Tibbi heyətə zərər vurmağa çalışırdılar ki, yaralılara yardım göstərə bilməyək. Buna baxmayaraq, əsgərlərimizə sipər olurduq ki, onlar sağ çıxsınlar", - deyə Vətən müharibəsi iştirakçısı H.Məmmədov əlavə edir.

Bəli, Vətən müharibəsi xalqımızın necə döyüşkən, mətin və cəsur olduğunu bir daha dünyaya göstərdi. Müharibədə peşəsindən, çalışdığı sahədən asılı olmayaraq, hər kəs səfərbər olub Vətən torpaqlarının azadlığı uğrunda savaşa qalxdı və bu savaşda şanlı Qələbə qazandı. Dünya Azərbaycan xalqının gücünü bir daha görmüş oldu.

## *Qazi Aslan NURİYEV:* "Düşmənin belini qırdıq, tarixi torpaqlarımızı azad etdik"

Beş il öncə - 2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlayanda xalqımızın igid, vətənpərvər övladları düşməndən qisas almaq, uzun illərdir əsarətdə qalan torpaqlarımızı azad etmək üçün döyüşlərə qatıldı. Tariximizin şanlı səhifəsinə öz adını yazdıran qəhrəman həmvətənlərimizdən biri də Aslan Qafar oğlu Nuriyevdir.

AZƏRTAC xəbər verir ki, torpaqlarımızın düşməndən azad edilməsi uğrunda hərbi əməliyyatlarda iştirak edərək qazi adını qazanan Vətən övladlarımız da xatirələrini daim uca tutduğumuz şəhidlərimiz kimi heç vaxt unudulmurlar. Qəhrəman qazilərimizin keçdiyi şərəfli döyüş yolu böyüməkdə olan gənc nəslə örnək olaraq göstərilir.

1990-cı il noyabrın 10-da Lənkəran rayonunun Hirkan qəsəbəsində dünyaya gələn Aslan Qafar oğlu Nuriyev Vətən müharibəsində snayperçi olub. Qəhrəman qazi beş il öncə müharibəyə qatılmasını və döyüşləri belə xatırlayır: "Ordumuzun gücünün artdığını görüb, qürur duydum. Ali Baş Komandanın rəhbərliyi altında döyüş meydanında düşmənin belini qıraraq, tarixi torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü tam bərpa etdik. Müharibə günləri bizim üçün həm ağır, həm də qürurverici idi. Mən o günləri fəxrlə xatırlayıram. Döyüşçü dostlarımızı, şəhid qardaşlarımızı unuda bil-



mərəm. Arzum var idi ki, Şuşaya kimi döyüşüm. Bu, mənə qismət olmadı, Qubadlı döyüşlərində ağır yaralandım. Dörd gün sonra ayıldım və özümü xəstəxanada gördüm. Qubadlı döyüşləri son döyüşlərim oldu. Oktyabrın 21-də döyüş meydanından təxliyə olundum".

Aslan Nuriyev həqiqi hərbi xidmətini başa vurandan sonra ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi çalışmağa başlayıb. 2016-cı ilin aprel ayında qoşunların təmas xəttində düşmən həmləsinin qarşısının alınmasında da igidliklə döyüşən Aslana, 2020-ci ilin sentyabr ayında döyüş tapşırığını yerinə yetirmək üçün bildiriş gəlir. O, bu xəbəri ilk olaraq orta məktəbdən ən çox sevdiyi riyaziyyat müəllimi Elçin Ağayev ilə paylaşır. "Sentyabrın 25-i Aslan bizə gəldi. Dedi ki, müəllim xeyir-duanızı verin. Döyüşlərə yollanıram. Dedim, Aslan, haradan bilirsən ki, döyüşlər başlayır. Dedi, könüllü müraciət etmişəm, məktub gəlib, Ali Baş Komandan əmr verib. Aslan ertəsi gün ordu sıralarına qatıldı. Döyüşlər vaxtı onunla əlaqə saxlayırdım. Məktəbdə oxuduğu müddətdə çox vətənpərvər şagird kimi böyümüşdü. Aslan kimi qazilərimizə, şəhidlərimizə borcluyuq. Onların qarşısında baş əyirik. Onlar torpaqlarımızı azad etdilər", - deyə Aslanın riyaziyyat müəllimi bildirir.

Bu müharibə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi ilə ordumuzun gücünü, xalqımızın birliyini dünyaya göstərdi. Bu şanlı Qələbəmiz dünya hərb tarixinə 44 günlük müharibə kimi düşsə də, Vətən müharibəsi adı altında tariximizə qızıl hərflərlə yazıldı.

Aslanın anası Məhbubə xanım deyir ki, oğlunun mərdliyi ilə həmişə fəxr edib: "Oğlum vətəndaşlıq borcunu yerinə yetirdi. Qalib kimi evinə qayıtdı. Mən onunla qürur duyuram. Müharibəyə gedəndə dedim, "oğlum getmə, körpə övladın var". Dedi ki, "ana mən ölməyə yox, öldürməyə gedirəm". Mən də ona güvənib, halallaşıb, yola saldım. Müharibədə qızğın döyüşlər gedirdi. Qubadlı döyüşlərində yaralandı. Biz bilmirdik. Üç gün komada qalıb, sonra həkimlər bizimlə əlaqə saxladılar, o vaxt yaralandığını bildik. Şükürlər olsun ki, sağ-salamat yanımızdadır".

Bu gün qəhrəman hərbçimizin sinəsini "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları bəzəyir. Qeyd edək ki, Aslan iki övlad atasıdır.

## "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə XTQ təlimi keçirilir



**İkitərəfli əməkdaşlıq planına əsasən, ölkəmizdə Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə xüsusi təyinatlı qüvvələr təlimi keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, oktyabrın 21-də təşkil edilən təlimin təntənəli açılış mərasimində Azərbaycanın və BƏƏ-nin şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad olunub. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin Dövlət himnləri səsləndirilib, Dövlət bayraqları qaldırılıb.

Tədbirdə XTQ komandanı general-mayor Ələkbər Cahangirov çıxış edərək qeyd edib ki, təlimin əsas məqsədi ölkələrimizin XTQ mənsubları arasında əməkdaşlığın genişləndirilməsi, praktiki vərdişlərin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və hərbi qulluqçularımızın peşəkar inkişafına xidmət etməkdir.

Təlim iştirakçıları real döyüş şəraitinə uyğunlaşdırılmış ssenarilər üzrə qarşılıqlı koordinasiya və idarəetmə bacarıqlarını praktiki olaraq inkişaf etdirəcəklər.

Taktiki fəaliyyətlər zamanı iştirakçılar manevr qabiliyyətini, çeviklik və liderlik vərdişlərini təkmilləşdirəcək, eləcə də hər iki ölkənin xüsusi təyinatlılarının təcrübəsindən bəhrələnərək, tətbiq edilən forma və üsulları mənimsəyəcəklər.

Sonra təlim iştirakçıları üçün yaradılmış şəraitə baxış keçirilib.

Qeyd edək ki, zirehli texnika, ordu aviasiyası və pilotsuz uçuş aparatlarının cəlb edildiyi "Sarsılmaz Tərəfdaşlıq-2025" birgə XTQ təlimində bölmələr döyüş taktikaları üzrə atəş, desantlaşma, snayper fəaliyyəti, düşmən obyektlərinin sıradan çıxarılması, eləcə də yaşayış məntəqəsinin düşməndən təmizlənməsi mövzuları üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetirəcəklər.

## ZƏFƏR gündəliyi
## 23 oktyabr 2020-ci il

## İlham ƏLİYEV: "Xocavənd, Cəbrayıl və Qubadlının bir neçə kəndləri azad edilib"

*Oktyabrın 23-də bütün cəbhəboyu döyüşlər davam edib. Gecə cəbhənin Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə olub. Düşmən müdafiə mövqelərimizi atıcı silahlardan və toplardan atəşə tutub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb. Vacib ərazi və yüksəkliklər azad edilib.*

### Ermənistan mülki şəxsləri məcburən döyüşə cəlb edib

Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilib.



Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edib, fərarilik edərək mövqeləri tərk ediblər.

### İrəvanın növbəti yalanı ifşa edilib

Ermənistan yenə yalan məlumat yayaraq guya Dağlıq Qarabağ ərazisindəki Ağdərə, Xocavənd və Qırmızı Bazar yaşayış məntəqələrinin Azərbaycan Ordusu tərəfindən atəşə tutulmasını iddia edib. Azərbaycan Müdafiə Nazirliyi bu xəbərin heç bir əsası olmadığını bildirib.

Qeyd edilib ki, tam əksinə, oktyabrın 23-ü gecə ərzində və səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayıb.

### Düşmənin bir neçə PUA-sı məhv edilib



Gecə 03:00-dan gündüz 12:00 radələrinədək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib. Digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Həmçinin gün ərzində Ağcabədi rayonu istiqamətində uçuş keçirəcəyinə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

### Ali Baş Komandandan müjdəli xəbərlər

Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi "X" səhifəsində paylaşım edib: "Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xəlifli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirhəsənli kəndləri-




ni işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezidentin növbəti müjdəsi də gecikməyib. Dövlət başçısı "X" səhifəsində daha bir paylaşım edib: "Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Düşmənin xeyli sayda canlı qüvvəsi, zirehli texnikası məhv edilib

Düşmənin qüvvə və vasitələri darmadağın edilib.

Müdafiə Nazirliyinin yaydığı videogörüntülərdə hər şey açıq-aydın müşahidə olunub. Düşmənə məxsus müxtəlif döyüş texnikaları, hərbi avadanlıqlar və yerdəyişmə etməyə hazırlaşan canlı qüvvə, zirehli texnika məhv edilib.

### İrəvan Azərbaycanla İran münasibətlərinə xələl gətirməyə çalışıb



Ermənistan tərəfi daha bir uydurma xəbər yayıb. Guya İranın hava məkanına ordumuza məxsus kamikadze-dron daxil olub və bundan sonra qonşu ölkə Azərbaycanın mövqelərini artilleriya atəşinə tutub.

Müdafiə Nazirliyi məlumat yayaraq bunun düşmənin növbəti dezinformasiyası olduğunu bildirib.

Qeyd edilib ki, İran-Azərbaycan dövlət sərhədinin ölkəmizin tam nəzarətinə götürülməsindən təşvişə düşən Ermənistan tərəfi bu cür yalan xəbərlər yaymaqla iki dövlət arasında olan yüksəksəviyyəli münasibətlərə xələl gətirməyə cəhd göstərir.

Azərbaycan ilə İran arasında mövcud olan və dərin tarixi köklərə malik siyasi, iqtisadi, dini, mədəni və digər sahələrdə əməkdaşlığımız uğurla inkişaf edir.

Beynəlxalq ictimaiyyət tərəfindən lazımi dəstək ala bilməyən Ermənistan hərbi-siyasi rəhbərliyi Azərbaycan-İran münasibətlərinin uğurla inkişafından ciddi narahatlıq keçirdiyi üçün çıxış yolunu yalan və böhtan xarakterli məlumatların yayılmasında görür.

### Aviasiya zərbələri ilə düşmənin komanda məntəqəsi məhv edilib

Cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının məhv edilməsinin videogörüntüləri yayılıb.

Aviasiya zərbələri nəticəsində düşmənin artilleriya bölmələri və komanda məntəqəsi məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,* *"Azərbaycan"***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 26 (Bakı şəhəri) | Rəşadət Xalıqov +99450 263 5318, 25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Naxçıvan MR, Şərur rayonu)<br>22 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841, 1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>19 (Yardımlı rayonu)<br>26 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526, 75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13 (Hacıqabul rayonu)<br>27 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090, 63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 05 (Bakı şəhəri)<br>19 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237, 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 06,13 (Salyan rayonu) | Pərviz Mirizadə +99451 640 1962, 65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 08, 23 (Tovuz rayonu)<br>09, 24 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070, 107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 01, 08 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050, 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 06, 21 (Sumqayıt şəhəri) | Tayfun Hacılı +99470 220 0577, 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 08, 30 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99450 277 0984, 93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 14, 21 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566, 29sayli_sd@meclis.gov.az |
| 12. | Arpadarai Nigar Cavid qızı | 04, 25 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112, 7sayli_sd@meclis.gov.az |
| 13. | Aslanov Novruzəli Davud oğlu | 06, 13, 20, 27 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888, 89sayli_sd@meclis.gov.az |
| 14. | Badamov Azər Camal oğlu | 04, 18 (Qusar rayonu) | General Sadulov +99450 313 2962, 61sayli_sd@meclis.gov.az |
| 15. | Bayramov Kamran Fərhad oğlu | 22 (Göygöl rayonu)<br>29 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747, 100sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Vüqar İbad oğlu | 14, 21 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002, 84sayli_sd@meclis.gov.az |
| 17. | Bədəlov Bədəl Şamil oğlu | 15 (Goranboy rayonu)<br>22 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733, 96sayli_sd@meclis.gov.az |
| 18. | Cəfərov Kamal Xaqani oğlu | 01, 08 (Sabirabad rayonu) | Azad Əhmədbəyli +99455 222 2588, 68sayli_sd@meclis.gov.az |
| 19. | Cəfərov Müşfiq Cəfər oğlu | 10 (Gəncə şəhəri)<br>22 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039, 41sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərova Tamam Şaməmməd qızı | 06, 21 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090, 88sayli_sd@meclis.gov.az |
| 21. | Əfəndiyev Məzahir Cavid oğlu | 08, 09 (Göyçay rayonu)<br>27 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424, 92sayli_sd@meclis.gov.az |
| 22. | Əfəndiyeva Günay Elçin qızı | 07, 22 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99455 379 0095, 14sayli_sd@meclis.gov.az |
| 23. | Ələkbərov Əziz Yusif oğlu | 08, 22 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355, 66sayli_sd@meclis.gov.az |
| 24. | Əliyev Bəxtiyar Həmzə oğlu | 06,20 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292, 119sayli_sd@meclis.gov.az |
| 25. | Əliyeva Jalə Fazil qızı | 01,15 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434, 95sayli_sd@meclis.gov.az |
| 26. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 15, 29 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555, Mövsüm Həsənli +99451 277 0067, 27sayli_sd@meclis.gov.az |
| 27. | Əmiraslanov Azər Kamal oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697, 108sayli_sd@meclis.gov.az |
| 28. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>22, 29 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638, 67sayli_sd@meclis.gov.az |
| 29. | Əsədov Heydər Xanış oğlu | 20, 27 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888, 51sayli_sd@meclis.gov.az |
| 30. | Əsgərov Asif Yunis oğlu | 01,10 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262, 112sayli_sd@meclis.gov.az |
| 31. | Feyziyev Cavanşir Əyyub oğlu | 15, 29 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618, 115sayli_sd@meclis.gov.az |
| 32. | Fətəliyeva Sevinc Həbib qızı | 12, 26 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956, 30sayli_sd@meclis.gov.az |
| 33. | Fətiyev Xanlar Nuru oğlu | 07, 21 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030, 98sayli_sd@meclis.gov.az |
| 34. | Gəncəliyev Tural Babaşah oğlu | 05, 20 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431, 122sayli_sd@meclis.gov.az |
| 35. | Hacıyev Sabir Kamal oğlu | 05, 26 (Göyçay rayonu) | Əli Qafarov +99450 200 2209, 91sayli_sd@meclis.gov.az |
| 36. | Həmzəyev Naqif Ələşrəf oğlu | 11, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438, 38sayli_sd@meclis.gov.az |
| 37. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 13 (Naxçıvan MR, Naxçıvan şəhəri)<br>20 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375, 5sayli_sd@meclis.gov.az |
| 38. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 15, 22 (Bakı şəhəri) | Hüseyn Müzəfferli +99450 547 7764, 36sayli_sd@meclis.gov.az |
| 39. | Həsənov Malik Əvəz oğlu | 16, 29 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116, 71sayli_sd@meclis.gov.az |
| 40. | Həsənov Nurlan Urfan oğlu | 15, 29 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433, 103sayli_sd@meclis.gov.az |
| 41. | Həsənova Afət Əbil qızı | 06, 13 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286, 32sayli_sd@meclis.gov.az |
| 42. | Hüseynli Əli Məhəmməd oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 22 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131, 53sayli_sd@meclis.gov.az |
| 43. | Hüseynov Aydın Nəsir oğlu | 12, 19 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878, 37sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynova Hicran Kamran qızı | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 26 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334, 42sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynova Sevinc Əmirəhməd qızı | 15, 29 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979, 104sayli_sd@meclis.gov.az |
| 46. | Xasayeva Səbinə Səməd qızı | 05, 13 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134, 11sayli_sd@meclis.gov.az |
| 47. | İbrahimqızı Məlahət İbrahim qızı | 13, 27 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142, 21sayli_sd@meclis.gov.az |
| 48. | İbrahimli Fəzail Feyruz oğlu | 13, 22 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549, 73sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimov Eldar Rza oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>01, 08 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306, 4sayli_sd@meclis.gov.az |
| 50. | İsgəndərov Anar Camal oğlu | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 29 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232, 78sayli_sd@meclis.gov.az |
| 51. | İskəndərov Vüqar Yapon oğlu | 08, 22 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115, 114sayli_sd@meclis.gov.az |
| 52. | İsmayılov İmamverdi İbiş oğlu | 03, 17 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026, 125sayli_sd@meclis.gov.az |
| 53. | İsmayılov Şahin Əmir oğlu | 28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366, 83sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılzadə Fariz Akif oğlu | 15, 29 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872, 77sayli_sd@meclis.gov.az |
| 55. | Kərimli Azər Şəmşid oğlu | 08, 22 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363, 111sayli_sd@meclis.gov.az |
| 56. | Kərimzadə Pərvin Orxan qızı | 12, 26 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685, 39sayli_sd@meclis.gov.az |
| 57. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 19, 26 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911, 9sayli_sd@meclis.gov.az |
| 58. | Qafarov Vasif Vaqif oğlu | 01, 22 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966, 80sayli_sd@meclis.gov.az |
| 59. | Qasımlı Mircəlil Xəqani oğlu | 01 (Gəncə şəhəri)<br>07 (Ağsu rayonu)<br>14 (Bakı şəhəri) | Anar Çıraqov +99499 309 1131, 123sayli_sd@meclis.gov.az |
| 60. | Qədirli Erkin Toğrul oğlu | 03, 24 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110, 16sayli_sd@meclis.gov.az |
| 61. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 05, 19 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845, 17sayli_sd@meclis.gov.az |
| 62. | Quliyev Azay Əjdər oğlu | 03, 24 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187, 8sayli_sd@meclis.gov.az |
| 63. | Quliyev Eldar Allahyar oğlu | 02, 23 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899, 28sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Musa İsa oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 29 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442, 40sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Ülvi Zahid oğlu | 06, 20 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156, 15sayli_sd@meclis.gov.az |
| 66. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 17 (Şəmkir rayonu)<br>27 (Bakı şəhəri) | Elnur Tağıyev +99455 212 8191, 101sayli_sd@meclis.gov.az |
| 67. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 15, 29 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782, 117sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanov Sadiq Haqverdi oğlu | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 20 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075, 64sayli_sd@meclis.gov.az |
| 69. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 15, 29 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770, 79sayli_sd@meclis.gov.az |
| 70. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 08, 22 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259, 110sayli_sd@meclis.gov.az |
| 71. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 09, 23 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 / +99470 300 1461, 69sayli_sd@meclis.gov.az |
| 72. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 01, 15 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950, 59sayli_sd@meclis.gov.az |
| 73. | Məmmədli Müşfiq Fazil oğlu | 06 (Xızı rayonu)<br>22 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314, 55sayli_sd@meclis.gov.az |
| 74. | Məmmədov Anar İlyaz oğlu | 18, 19, 22 (Tərtər rayonu)<br>23 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791, 97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 75. | Məmmədov Ceyhun Valeh oğlu | 15 (Bakı şəhəri)<br>29 (Sumqayıt şəhəri) | Rəşad Quliyev +99455 847 5621, 120sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Elman Camal oğlu | 05, 12 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335, 118sayli_sd@meclis.gov.az |
| 77. | Məmmədov Hikmət Baba oğlu | 05, 19 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219, 19sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov İlham Kazım oğlu | 05, 22 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417, 52sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Qaya Məmməd oğlu | 05, 26 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102, 31sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov Məşhur Şahbaz oğlu | 15, 22 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641, 74sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Soltan Teymur oğlu | 15, 22 (Bakı şəhəri) | Azər Məlikov +99450 373 4403, 12sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədova Nigar Fikrət qızı | 03, 12 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838, 48sayli_sd@meclis.gov.az |
| 83. | Məsimli Əli Əhməd oğlu | 29 (Qax rayonu)<br>30 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287, 113sayli_sd@meclis.gov.az |
| 84. | Mikayılova Sevil Əlirazı qızı | 06, 17 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606, 58sayli_sd@meclis.gov.az |
| 85. | Mirkişili Tahir Famil oğlu | 13, 27 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211, 43sayli_sd@meclis.gov.az |
| 86. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 15, 22 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484, 90sayli_sd@meclis.gov.az |
| 87. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 14, 28 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443, 54sayli_sd@meclis.gov.az |
| 88. | Mollazadə Asim Nazim oğlu | 05, 19 (Bakı şəhəri) | İlkin Həsənov +99450 203 7066, 22sayli_sd@meclis.gov.az |
| 89. | Möhbalıyev Səttar Suliddin oğlu | 06 (Naxçıvan MR, Babək rayonu)<br>24 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 / +99450 649 7066, 3sayli_sd@meclis.gov.az |
| 90. | Muradov Rövşən Şahbaz oğlu | 19, 26 (Bakı şəhəri) | Murad Həsənli +99451 277 7171, 121sayli_sd@meclis.gov.az |
| 91. | Musabəyov Rasim Nəsrəddin oğlu | 07, 21 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725 18sayli_sd@meclis.gov.az |
| 92. | Musayev Elşad Nəbi oğlu | 01, 15 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 / +99450 669 5919, 10sayli_sd@meclis.gov.az |
| 93. | Musayev Elşən Məmmədhənifə oğlu | 08,22 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089, 116sayli_sd@meclis.gov.az |
| 94. | Mustafa Fazil Qəzənfər oğlu | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>03, 17, 24 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950, 26sayli_sd@meclis.gov.az |
| 95. | Nağıyev Arzu Nəsib oğlu | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08 (Tovuz rayonu)<br>22 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212, 105sayli_sd@meclis.gov.az |
| 96. | Namazov Ramid Zakir oğlu | 13, 24 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986, 50sayli_sd@meclis.gov.az |
| 97. | Nəbiyev Rizvan Novruz oğlu | 13, 27 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868, 49sayli_sd@meclis.gov.az |
| 98. | Nəsirov Elman Xudam oğlu | 03, 24 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425, 72sayli_sd@meclis.gov.az |
| 99. | Novruzov Siyavuş Dünyamalı oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 22 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061, 2sayli_sd@meclis.gov.az |
| 100. | Nurullayev Razi Qulaməli oğlu | 12, 26 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777, 81sayli_sd@meclis.gov.az |
| 101. | Nurullayeva Könül Oruc qızı | 01, 27 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375, 24sayli_sd@meclis.gov.az |
| 102. | Oruc Zahid Məhərrəm oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093, 33sayli_sd@meclis.gov.az |
| 103. | Paşayeva Gülşən Məmmədəli qızı | 06, 15 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607, 13sayli_sd@meclis.gov.az |
| 104. | Paşazadə Cavanşir Hümmət oğlu | 09, 16 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123, 76sayli_sd@meclis.gov.az |
| 105. | Polad Bülbüloğlu | 13, 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>24 (Ağdam rayonu) | Milli Məclisin qəbul otağı +99412 510 9938, 124sayli_sd@meclis.gov.az |
| 106. | Rafailov Anatoliy Xaimoviç | 15, 29 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526, 60sayli_sd@meclis.gov.az |
| 107. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 15 (Naxçıvan MR, Ordubad rayonu)<br>26 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777, 6sayli_sd@meclis.gov.az |
| 108. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 06, 27 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131, 70sayli_sd@meclis.gov.az |
| 109. | Rzayev Tahir Musa oğlu | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 14, 26, 27 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395, 86sayli_sd@meclis.gov.az |
| 110. | Salahlı Səyyad Adil oğlu | 15 (İmişli rayonu)<br>22 (Saatlı rayonu) | Ağa Abışov +99450 775 7477, 82sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 12, 29 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638, 45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>03, 24 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111, 109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 13 (İsmayıllı və Qobustan rayonları)<br>20 (Şamaxı rayonu) | Elman Mikayılov +99450 288 9938, 87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 13, 27 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767, 106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 06, 20 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311, 23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 07, 20 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717, 56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 03 (Sumqayıt şəhəri)<br>17 (Abşeron rayonu)<br>24 (Bakı şəhəri) | Aslan Talıbov +99455 283 6367, 47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 06, 24 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111, 57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 05, 19 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842, 20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 05, 19 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434, 44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 03,24 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330, 35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 06, 22 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040, 99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 08, 22 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722, 34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# Təbiətin bal dadı















**Payızın qızılı günləri Bakıya həm də xüsusi bir ətirli dad gətirib. Bu, təbiətin bəxşişi, zəhmətin və səbrin "meyvə"si olan balın ətirli dadıdır. Arıların yazdan bəri topladığı nektar indi bakılıların ağızlarının tamını dəyişməyə gəlib. Axı, deyirlər, bir qaşıq balda günəşin istisi, çiçəklərin nəfəsi və zəhmətin ətri var.**

Hər il olduğu kimi, Bakıda bu il də Kənd Təsərrüfatı Nazirliyi tabeliyində fəaliyyət göstərən Aqrar Tədarük və Təchizat ASC və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə Arıçılıq Məhsullarının Ənənəvi Respublika Sərgi-Satış Yarmarkası təşkil olunub. 25-ci dəfə təşkil edilən yarmarka yüzlərlə arıçının il boyu dağda, meşədə, çəmənliklərdə səbirlə çəkdiyi zəhmətin göz önündə canlanan hekayəsidir. Bura sadəcə bir satış nöqtəsi deyil, şipşirin vitrindir və sorağı çoxdan sərhədləri aşmış Azərbaycan balının nümayişidir. Təqdim olunan bal nümunələri bu dəfə də çiçək qoxulu, dağ havası kimi təravətlidir və arıçının təbiətə olan sədaqətinin, alın təri ilə yoğrulan halal zəhmətinin məhsuludur. O məhsulu ki, hər damlasında bir zəhmət hekayəsi var. Özü də təkcə zəhmət hekayəsi yox, həm də yazın təravətindən doğan çiçəklərin öpüşləri, yay günlərinin arıların usanmadan topladığı şirəsi və payızın sakitliyinə doğru uzanan uzun bir səyahətin dadı var bu məhsulun hər damlasında.

25-ci yarmarka təkcə yubiley ruhunu daşımır, eyni zamanda rekordlarla da diqqət çəkir. Azərbaycanın 43 bölgəsindən 280-dən çox balçı fermer çiçək ətirli, gül nəfəsli məhsulunu gətirib paytaxta. Xankəndi, Kəlbəcər, Laçın, Quba, Zaqatala, Lerik, Balakən, Şəki, Gədəbəy və başqa yerlərdən gələn arıçılar öz məhsullarını alıcıya ürəklə təqdim edirlər. Çünki balları təmizdir, halaldır. Üstəlik də istənilən zövqə uyğundur. Axı bizdə hər bölgənin balı özünəməxsus dada və ətirə malikdir.

Yarmarka təşkilatçıları bu dəfə də ədalət və şəffaflıq prinsiplərinə əsaslanaraq, iştirakçılara rayonlardakı arıçı sayına uyğun proporsional şəkildə yer ayırıblar ki, bu da bölgələr arasında balansın qorunması və daha çox fermerin öz məhsullarını tanıtmaq imkanı deməkdir. Amma hər arıçı üçün də qapılar açıq olmayıb. Yarmarkaya yalnız Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 2025-ci il sentyabrın 1-dək minimum 40 arı ailəsini rəsmi bəyan edən, sənəti və zəhməti ilə seçilən fermerlər qəbul olunub. Bu cur yanaşma keyfiyyətə və peşəkarlığa verilən dəyərin göstəricisidir.

Genişmiqyaslı tədbirdə 100 tondan artıq bal və 15-dən çox müxtəlif növ arıçılıq məhsulları satışa çıxarılıb. Hamısı da saf, təmiz və şəfalı. Ancaq bu bolluğun arxasında ciddi bir nəzarət də dayanır. Satışa təqdim olunan bütün məhsullar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri tərəfindən yoxlanılıb, nümunələr laborator analizlərdən keçirilib. Və yalnız keyfiyyətə cavab verən, təhlükəsizliyi təmin olunan məhsullar yarmarkanın süfrəsinə çıxarılıb.

Arıçılıq sadəcə bir təsərrüfat sahəsi deyil. O, əsrlərdən bəri xalqımızın təbiətlə qurduğu vəhdəti, səbri və halal zəhməti birləşdirir özündə. Bal isə yalnız şirin dad, müalicəvi deyil, həm də təbiət adamının zəhmət fəlsəfəsinin məhsuludur. Bakıda keçirilən və noyabrın 9-dək davam edəcək 25-ci Sərgi-Satış Yarmarkası isə bu fəlsəfəni yaşadan, onu gələcək nəsillərə ötürən ənənədir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Daha bir boksçumuz Avropa çempionatının yarımfinalçısıdır



Azərbaycanın daha bir boksçusu Monteqronun Budva şəhərində keçirilən U-15 Avropa çempionatında yarımfinala vəsiqə qazanıb.

Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, Nəsrin Abdullazadə 1/4 finalda Esila Yıldırıma (Türkiyə) qalib gəlməklə bu hüquqa yiyələnib.

40 kiloqramda mübarizə aparan milli üzvü 5:0 (29:28, 30:27, 30:27, 30:27, 29:28) hesablı qələbəyə sevinib. O, yarımfinala yüksəlməklə özü üçün azı bürünc medalı da təmin edib.

N. Abdullazadə finala vəsiqə uğrunda Elliemay Feterstonla (İrlandiya) döyüşəcək. Görüş oktyabrın 23-də olacaq.

Qeyd edək ki, 32 ölkədən 369 boksçunun qatıldığı Avropa çempionatına oktyabrın 25-də yekun vurulacaq.

# Dağ velosipedi üzrə ölkə çempionatının qalibləri bəlli olub



Gənclər və İdman Nazirliyi, Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birgə təşkilatçılığı ilə keçirilən dağ velosipedi üzrə Azərbaycan çempionatına yekun vurulub.

AzVİF-dən AZƏRTAC-a bildirilib ki, yarışın ikinci günündə iştirakçılar Teleqüllə yaxınlığındakı parkda "Enduro" növündə qüvvələrini sınayıblar.

U-15 yaş kateqoriyasında Respublika Olimpiya Velosiped Məktəbinin (ROEQİUGVM) təmsilçiləri Ayaz İsgəndərli və Toğrul Məmmədli, müvafiq olaraq, 1-ci və 2-ci yerləri tutublar. Kənan Eyvazov (həvəskar) fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Gənclər, U-23, Elit yaş kateqoriyasında Emin Süleymanov (həvəskar) ölkə çempionu olub. Mirmövsüm Cəbrayılov (həvəskar) gümüş, Nihad İmanzadə (ROEQİUGVM) isə bürünc medal qazanıb. Mükafatçılar medal, diplom və pul mükafatı ilə təltif ediliblər.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# "Dünən fərman verən bu gün can verir"

## Avropa İttifaqında ilk dəfə keçmiş prezident həbs edilib

**Oktyabrın 21-də Fransanın 70 yaşlı keçmiş prezidenti Nikola Sarkozi 2007-ci il prezidentlik kampaniyasını maliyyələşdirməsi ilə bağlı Liviya ilə cinayətkar sövdələşmədə təqsirli bilinərək məhkum edilmiş, 5 il həbs cəzasını çəkməyə başlamaq üçün Parisdəki La Sante həbsxanasına aparılıb.**





Eks-prezident yerli vaxtla səhər saat 9:15 radələrində həyat yoldaşı, müğənni və keçmiş model Karla Bruni-Sarkozi ilə əl-ələ tutaraq Fransa paytaxtındakı evindən çıxıb. Sarkozi onu birbaşa Parisdəki yeganə həbsxananın qapısına aparan polis maşınına minməzdən əvvəl cütlük qucaqlaşıb. Sabiq dövlət başçısı orada təkadamlıq kamerada saxlanılacaq.

Sabiq prezidentin oğullarının həmrəylik nümayişi keçirmək üçün çağırışından sonra Sarkozinin yüzlərlə tərəfdarı onun Parisin elit 16-cı rayonundakı ailə iqamətgahı qarşısında toplaşıb. İzdiham Fransa bayraqları dalğalandıraraq "Nikola, Nikola" şüarları səsləndirib. Bəzi etirazçılar hətta göz yaşları axıdıblar. "Onu həbsxanaya göndərmək düzgün deyil" deyən bir qadın Fransa bayrağını dalğalandırıb: "Bu, tamamilə absurddur. Elektron bilərzik, ictimai xidmət kimi başqa variantlar da var idi. Bu, sadəcə olaraq onu alçaldır və Fransanı alçaldır". Yaşlı bir kişi isə bu fikirləri təkrarlayıb: "Onun etdiyi hərəkət həbsə layiq deyil. Bu, tamamilə iyrəncdir".

"Euronews" telekanalı xəbər verib ki, etirazçılardan biri əlində "Biz səninləyik, Nikola" yazılmış lövhəni tutub. Qadın məhkəmənin qərarından utandığını deyib və əlavə edib ki, Fransa indi keçmiş dövlət başçısını həbs etdiyi üçün inkişaf etməkdə olan ölkəyə bənzəyir. Bir gənc hökmə reaksiyasını belə izah edib: "Ölkəmizə 5 il rəhbərlik etmiş insana görə çox kədərliyəm. Bu cəza çox sərt görünür". Həqiqətən, Nikola Sarkozinin həbsi Fransanın siyasi tarixində görünməmiş hadisədir.

Onu da qeyd edək ki, sabiq prezident apellyasiya şikayəti verib. Amma o, yalnız rəsmi həbsdən sonra azadlığa buraxılmasını tələb edə bilərdi. Ona görə də vəkilləri artıq müvafiq vəsatət qaldırıblar. Fransa qanunlarına görə isə hakimlərə qərar çıxarmaq üçün iki aya qədər vaxt verilir. Bu hesabla məhkəmənin cavab vermək üçün dekabrın 21-nə qədər vaxtı var, yəni Sarkozinin Miladdan əvvəl azadlığa buraxılmaq ehtimalı var.

Vəkillərinin dediyinə görə, N.Sarkozi təhlükəsizlik baxımından digər məhbuslardan tam təcrid olunacaq. "O, hasarlanmış həyətdə gündə bir saat təmiz havada olacaq" deyən vəkil Kristof İnqreyn jurnalistlərə bildirib ki, Sarkozi kamera soyuq olduğu üçün özü ilə bir neçə sviter, iki kitab və səs-küyə qarşı qulaqcıqlar götürüb. O, digər məhbuslar olmadıqda kiçik kitabxana və idman zalından istifadə edə biləcək. Eks-prezidentə yeməkləri məhbuslar deyil, işçilər çatdıracaq. Həbsxana direktoru Sebastyan Kovel bunu belə izah edib: "Məqsəd onun heç vaxt digər məhbuslarla təmasda olmamasını təmin etməkdir".

Xatırladaq ki, keçən ay Nikola Sarkozi 2007-ci ildə prezidentlik kampaniyasını qanunsuz yolla maliyyələşdirməkdə ittiham olunaraq 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Paris məhkəməsi cinayətlərin səbəb olduğu "ictimai qaydanın pozulmasının ciddiliyi"ni əsas gətirərək, apellyasiyadan əvvəl dərhal həbs cəzası ilə bağlı qərar vermişdir.

Ötən həftə Sarkozi ilə Yelisey sarayında görüşən Fransa Prezidenti Emmanuel Makron sələflərindən birini qəbul etməsinin tamamilə normal olduğunu bildirmiş, lakin məhkəmənin qərarı ilə bağlı birbaşa şərh verməmişdir. Bununla belə, həmin anın emosional təsirini etiraf etmişdir: "Həbsxanadakı prezidentin obrazının kəskin reaksiyaya səbəb ola biləcəyi başadüşüləndir".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz olacaq

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin səhər bəzi şəhərətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 13-16, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 19-23, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Eşitmə və nitq qabiliyyəti olmayan əlilliyi olan şəxslər üçün surdoloji maarifləndirmə xidmətlərinin aparılması", "Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə təbliğat kampaniyasının aparılması", "Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi" və "Əlilliyin düzgün dərk edilməsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi" adlı müsabiqələr keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 06 noyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqələr 07 noyabr 2025-ci il saat 11:00-dan etibarən agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032).**

***Müsabiqə komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Arzu İmanovaya əmisi

**CAVANŞİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Şadlinskilər ailəsinə əzizləri

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4085**
**Sifariş 2161**

**Qiyməti 60 qəpik**